# 525-ci qəzet

10 iyul 2012-ci il, çərşənbə axşamı №120 (3676). Qiymətı 20 qəpik

www.525.az


## *Sergey Narışkin:* "Rusiya Qarabağ münaqişəsinin kənardan həllinə qarşıdır"

### "ƏGƏR HƏR İKİ TƏRƏFİN MARAQLARINA CAVAB VERƏN HƏLL YOLU TAPILSA, RUSİYA BU RAZILAŞMANIN QARANTI ROLUNDA ÇIXIŞ ETMƏYƏ HAZIRDIR"



"Rusiya həmişə Cənubi Qafqazda əmin-amanlıq və stabilliyin bərqərar olmasına tərəfdar olub". APA-nın məlumatına görə, bu fikirləri Rusiya Dövlət Dumasının sədri Sergey Narışkin Bakı Slavyan Universitetində çıxışı zamanı deyib. Onun sözlərinə görə, bu kontekstdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması mühüm əhəmiyyət kəsb edir: "Rusiyanın bu məsələdə mövqeyi dəyişməz qalır. Biz bu problemin kənardan hazır reseptlər əsasında həllinə qarşıyıq. Qəti şəkildə əminik ki, bu problem hər iki tərəfin maraqları təmin olunacağı təqdirdə həll edilə bilər. Əgər belə həll yolu tapılsa, Rusiya bu razılaşmanın qarantı rolunda çıxış etməyə hazırdır. Lakin münaqişənin nizamlanmasına görə məsuliyyət yenə də Azərbaycan və Ermənistan xalqlarının üzərinə düşür".

Sergey Narışkin Rusiyanın sabiq prezidenti Dmitri Medvedyevin təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında on görüş keçirildiyini xatırladıb: "Bu görüşləri tam nəticəsiz adlandırmaq olmaz. Keçirilən görüşlər tərəflərin mövqelərini müəyyənləşdirməyə və Dağlıq Qarabağ münaqişəsinin həll istiqamətlərini müəyyənləşdirməyə imkan verdi".

Dövlət Dumasının sədri son zamanlar cəbhə xəttində baş verən insidentlərdən narahatlığını ifadə edib: "Biz həmişə öz mövqeyimizi qəti şəkildə ortaya qoymuşuq — güc tətbiq etməmək və güc tətbiqi ilə hədələməmək münaqişənin nizamlanması üçün əsas şərtlərdən biridir. Mən optimistəm və ümid edirəm ki bu münaqişə sülh yolu ilə həllini tapa bilər".

Qeyd edək ki, Sergey Narışkin Azərbaycana səfəri çərçivəsində bu gün Bakı Slavyan Universitetinin müəllim-tələbə heyəti qarşısında çıxış edib. Tədbirdə Rusiya Dövlət Dumasının sədrinə universitetin fəxri doktoru adı verilib və ona müvafiq diplom təqdim olunub.

## *Rusiyalı politoloq:* "Azərbaycanla Ermənistan arasında müharibə olmayacaq"

### "ƏSAS GEOSİYASİ OYUNÇULAR CƏNUBİ QAFQAZDA BÖYÜK MÜHARİBƏNİN BAŞLANMASINDA MARAQLI DEYİLLƏR"

**Rusiya Xarici İşlər Nazirliyi Moskva Beynəlxalq Əlaqələr İnstitutu yanında Beynəlxalq Tədqiqat Analitik Mərkəzinin direktoru Andrey Kazantsevin APA-nın Moskva müxbirinə müsahibəsi**



***— Keçən ayın əvvəllərində Azərbaycan və Ermənistan qoşunlarının cəbhə xəttində gərginlik yaşanmışdı və bu gərginlik hələ də davam edir. Qafqazda yeni müharibənin başlaması ehtimalı nə qədərdir?***

— İki ölkə sərhədində atəşkəsin pozulması müharibənin başlanması demək deyil. Amma hal-hazırda vəziyyətin daha da şiddətlənməsi açıq müharibəyə səbəb ola bilər. Lakin hələlik beynəlxalq vəziyyət onu göstərir ki, müharibə olmayacaq. Çünki əsas geosiyasi oyunçular Cənubi Qafqazda böyük müharibənin başlanmasında maraqlı deyillər. Yeni konflikt nə Rusiyanın, nə də ABŞ-ın marağında deyil. Çünki ABŞ-ın Əfqanıstanda və digər bölgələrdə problemləri var. Müharibənin başlanması Avropa Birliyinin də maraqlarına ziddir. Böhran dövrünü yaşayan Avropa öz resurslarını bu konfliktə sərf edəcək vəziyyətdə deyil. O cümlədən bu, qonşuları ilə problemsiz siyasət yürüdən Türkiyənin də marağına cavab vermir. Əgər tərəflərdən biri müharibəyə başlasa, beynəlxalq ictimaiyyət dərhal müdaxilə edəcək.

***— Azərbaycan-Ermənistan müharibəsi başlayacağı təqdirdə Rusiya özünü necə aparacaq?***

— Belə vəziyyətdə Rusiya üçün mövqe bildirmək çox çətin olacaq. Çünki Ermənistanla Rusiya arasında çox sıx əməkdaşlıq hökm sürür. Bu həm siyasi, həm də hərbi sahədə olan əməkdaşlıqdır. Eyni zamanda Rusiyanın Azərbaycanla da sıx strateji əməkdaşlığı var. Fikrimcə, Rusiya müharibənin başlamaması üçün əlindən gələni edəcək. Əgər tərəflərdən biri müharibəyə başlasa, böyük dövlətlərin liderləri dərhal həm Azərbaycan, həm də Ermənistan dövlət başçısından müharibəni dayandırmağı xahiş edəcəklər.

***Ardı 3-cü səh.***

## İlham Əliyev Putinə başsağlığı verib

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının prezidenti Vladimir Putinə başsağlığı məktubu ünvanlayıb. APA-nın məlumatına görə, məktubda deyilir: "Krasnodar diyarında daşqınlar nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən sarsıtdı. Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün dost Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm".

## Cəbhədə atışma, iki hərbçimiz yaralandı

### DÜŞMƏN ORDUSUNUN İSƏ BİR ƏSGƏRİ MƏHV EDİLİB, DÖRDÜ YARALANIB

Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində atışma olub. APA-nın məlumatına görə, hadisə cəbhənin Ağstafa rayonu istiqamətində qeydə alınıb. Tərəflər arasında baş verən intensiv atışma nəticəsində Ermənistan tərəfi bir itki verib, 4 nəfər yaralanıb. Bu barədə məlumatı Ermənistanın Müdafiə Nazirliyi də mətbuata təsdiqləyib.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Eldar Sabiroğlu isə APA-nın sorğusuna cavabında bildirib ki, təmas xəttində baş vermiş atışma zamanı Azərbaycan Ordusunun iki hərbçisi — Cəlal Alıyev və Urfan Vəliyev güllə yarası alıblar.

Yaralı hərbçilər hospitala yerləşdirilib, vəziyyətləri orta-ağırdır.

## *Elmar Məmmədyarov:* "Türkmənistan bizə müraciət etməyib"

"Hələlik Türkmənistan tərəfi "Kəpəz" yatağına görə beynəlxalq məhkəməyə müraciət etməyə hazırlaşdığı barədə Azərbaycan Xarici İşlər Nazirliyinə müraciət etməyib".

APA-nın məlumatına görə, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Türkmənistanın ölkəmizi beynəlxalq məhkəməyə verməyə hazırlaşdığı barədə xəbərləri belə şərh edib. XİN başçısı hazırda Xəzərin hüquqi statusu ilə bağlı danışıqların getdiyini deyib: "Danışıqlar davam edir, üç ölkə ilə məsələlər razılaşdırılıb. Düşünürəm ki, biz bu məsələləri eyni mexanizmlər əsasında Türkmənistan və İranla da razılaşdıra biləcəyik".

## Azərbaycan Rusiyada daşqından zərər çəkənlərə humanitar yardım göndərdi

Azərbaycan Krasnodar diyarında baş verən daşqından zərər çəkənlərə humanitar yardım göndərib. FHN-in 22 maşından ibarət humanitar yardım karvanı iyulun 8-i saat 21.00 radələrində Krasnodara yola salınıb. FHN-in Mülki Müdafiə Qoşunlarının qərargah rəisi, polkovnik Aslan Hüseynov yolasalma mərasimində jurnalistlərə deyib ki, Azərbaycan prezidentinin göstərişi ilə Rusiyanın Krasnodar diyarında təbii fəlakətdən ziyan çəkənlərə yardım göstərilir: "Fövqəladə Hallar Nazirliyinin 22 yük avtomobilindən ibarət karvanı fəlakət zonasına yola düşüb. Humanitar yardıma içməli su, şirələr və digər zəruri ərzaq məhsulları daxildir. Maşın karvanını 38 nəfərlik şəxsi heyət müşayiət edir. Humanitar yardımın daşqın zonasına sabah çatacağı gözlənilir".

Qeyd edək ki, Krasnodar diyarında baş verən daşqınlarda 171 nəfər ölüb. Təbii fəlakətlə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinə başsağlığı verib.

## Ermənilər Azərbaycanın mövqelərini atəşə tutublar

Erməni silahlı bölmələri srağagün və dünən Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan kəndində, işğal olunmuş Füzuli rayonunun Qorqan, Goranboy rayonunun Tapqaraqoyunlu və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

## Ayaz Mütəllibov birdəfəlik qayıtdı

### "AXIR Kİ, NİYYƏTİMİZ YERİNƏ YETDİ"



Azərbaycanın keçmiş prezidenti Ayaz Mütəllibov iyulun 7-si axşam saatlarında həmişəlik Bakıya qayıdıb. "Media forum" saytı xəbər verir ki, vətənə Moskvadan xanımıyla birgə qayıdan sabiq prezidenti Bakının beynəlxalq aeroportunda qardaşı Əşrəf Mütəllibov, Ayaz Mütəllibovun oğlu Zaur Mütəllibov, gəlinləri, nəvələri, Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə, Mütəllibovun hakimiyyəti dövründə yüksək dövlət vəzifələrində çalışmış bəzi şəxslər, bir sıra tərəfdarları qarşılayıblar. Bundan başqa, sabiq prezidenti Azərbaycan dövlətinin ayırdığı xüsusi avtomobil və mühafizəçilər qarşılayıb. Xarici markalı avtomobil qara pərdəli olub. Ayaz Mütəllibov həmin avtomobildə aeroportdan Bilgəhdəki bağ evinə yola düşüb.

Ayaz Mütəllibov mediaforum.az saytına açıqlamasında ölkəyə qayıtmasını, vətəndə yaşamasına imkan yaradılmasını, hazırda vətəndə olmasını yüksək qiymətləndirib: "Mənim ölkəyə qayıtmağım üçün çalışanlara, bu işdə əməyi olanlara, məni qarşılamaq üçün zəhmət çəkib aeroporta gələnlərə təşəkkür edirəm. Hamısı çox sağ olsun. Təbii ki, həyəcan var, sevinc var. Bu, təbiidir. Axır ki, niyyətimiz yerinə yetdi. İndi buradan Bilgəhə bağ evimə gedirəm. İlk ziyarət edəcəyim yer qəbiristanlıq olacaq".

Ayaz Mütəllibov 1990-cı ildə Azərbaycan prezidenti seçilib. 1992-ci il martın 6-da istefa verib. Həmin il mayın 14-də yenidən vəzifəsinə qayıdıb, ancaq bir gün sonra xalq hərəkatının təzyiqi altında prezidentlikdən çəkilərək ölkəni tərk edib və o vaxtdan Rusiya paytaxtı Moskvada yaşayıb. Bu illər ərzində Ayaz Mütəllibov yalnız bir yol — 2011-ci ilin avqustunda oğlu vəfat edəndə Azərbaycana gələ bilib.

Azərbaycanda onun haqqında cinayət işləri qaldırılıb. 2003-cü ildə məhkəmə onun haqqında həbs qətimkan tədbiri seçib və sabiq prezidentin axtarışı elan olunub. 2012-ci ilin iyun ayında Azərbaycanda yeni qanun — sabiq prezidentlərin və ailə üzvlərinin təminatını nəzərdə tutan konstitusiya qanunu qüvvəyə minib, bununla da Ayaz Mütəllibov ölkəyə qayıtmaq imkanı əldə edib. Qanuna görə, keçmiş prezident Azərbaycan Respublikasının prezidenti seçilməzdən əvvəl və Azərbaycan Respublikasının prezidenti səlahiyyətlərini icra edərkən etdiyi hərəkətlərə (hərəkətsizliyə) görə inzibati və ya cinayət məsuliyyətinə səlb edilə bilməz.




# Fikrət Mursaqulov Fondunun "Ümid işığı" mükafatının təqdimatı keçirilib

Dünən Azərbaycan Mətbuat Şurasında Fikrət Mursaqulov Fondunun "Ümid işığı" mükafatının təqdimatı keçirilib.

Mətbuat Şurası ilə Fikrət Mursaqulov Fondunun birgə təşkilatçılığı ilə baş tutan toplantını açan MŞ sədri Əflatun Amaşov bildirib ki, ötən əsrin 80-ci illərində fəal poetik, publisistik və elmi yaradıcılıqla məşğul olmuş F. Mursaqulov gözdən əlilliyinə baxmayaraq, dəyərli sənət nümunələri ərsəyə gətirməsi ilə dostlarının, onu tanıyanların yaddaşında əbədi iz buraxıb. Yüksək istedadı, mənəvi keyfiyyətləri, eləcə də jurnalistikaya hədsiz bağlılığı F. Mursaqulovun adının əbədiləşdirilməsi ideyasında başlıca motivi təşkil edib: "Fikrət Mursaqulov işığa həsrət adam idi, amma o, işıqlı adam idi. Təsadüfi deyil ki, Fikrətin həyat və yaradıcılığı ilə bağlı bu günlərdə təqdimatına toplaşdığımız kitabın adı da məhz "İşıq əlifbası" adlanırdı. O işıq insanları həyata səsləyirdi, nikbin olmağa çağırırdı, ruhdan düşməməyi təlqin edirdi. Fikrətin yaradıcılığı üçün də bu motiv son dərəcə mühüm əhəmiyyət kəsb edirdi".

Fikrət Mursaqulov Fondunun sədri, "Xalq qəzeti"nin şöbə müdiri İlham Abbasov bildirib ki, dünyanın hər yerində fiziki qüsurlu şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində işlər gedir, məsələ daim aktuallığını saxlayır.



Buna zərurət təkcə qayğı göstərmək niyyətindən irəli gəlmir. Həmin adamların yaşayıb yaratmasına ehtiyac da duyulur. Fəaliyyəti cəmiyyət üçün zəruri olan yaradıcı şəxslərdən biri də jurnalist-publisist, şair Fikrət Mursaqulov olub.

F.Mursaqulov Fondunun fəaliyyət göstərəcəyi istiqamətlər barədə məlumat verən İ. Abbasov bildirib ki, qurumun başlıca məqsədi fiziki qüsuru olan yaradıcı şəxslərin, xüsusən də jurnalistlərin əməyinin stimullaşdırılmasından ibarətdir. O, təşkilatın "Ümid işığı" mükafatını məhz bu məqsədlə təsis etdiyini də diqqətə çatdırıb: "Qərara almışıq ki, mükafat hər il Fikrətin ad günü ərəfisində təqdim olunsun. Təkcə jurnalistikada deyil, digər yaradıcı sahələrdə çalışan şəxslərə də bu mükafatın verilməsi nəzərdə tutulur. İlk laureat isə hamımızın yaxşı tanıdığı, şair-publisist Giya Paçxataşvilidir. Uzun illərdir, Azərbaycanda fəaliyyət göstərən, gürcü millətinin nümayəndəsi olan Giya həm yaradıcılığı baxımından gerçək Azərbaycançıdır, həm də həqiqi dostdur, cəfakeş insandır. Fikrətin daimi yanında olub, ona həç kəsin göstərə bilməyəcəyi qayğını göstərib. Buna görə də belə düşündük ki, Giya Fikrət Mursaqulovun adı ilə bağlı mükafatın ilk laureatı olmağa hər tərəfdən haqqı çatan insandır".

Bundan sonra Fikrət Mursaqulov Fondunun "Ümid işığı" mükafatı G.Paçxataşviliyə təqdim olunub.

Tədbirdə çıxış edənlərdən MŞ sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, MŞ İdarə Heyətinin üzvləri, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Araşdırmaçı Jurnalistlər Liqasının sədri Qafar Çaxmaqlı, Bakı Slavyan Universitetinin professoru Nizami Tağısoy, Gözdən Əlillər Cəmiyyətinin sədri Səmyar Abdullayev, "525-ci qəzet"in baş redaktor müavini Yusif Rzayev, müəllim, şair Famil Hacısoy, "Paralel" qəzetinin əməkdaşı Fəridun Orucov, "Bakı xəbər" qəzetinin baş redaktor müavini Cəlil Həsənov, "Bahar" jurnalının baş redaktoru Ruhiyyə Əliyeva və başqaları Fikrət Mursaqulov Fondunun yaradılmasını müsbət addım kimi dəyərləndirərək qurumun fiziki qüsuru olan yaradıcı şəxslərin əməyinin stimullaşdırılmasında müstəsna rol oynayacağına ümidvar olduqlarını bildiriblər. Onlar cəmi 34 il ömür sürmüş F.Mursaqulovla bağlı xatirələrini də bölüşüblər. Fikrəti həddən artıq həyatsevər, dostluğa sadiq adam kimi səciyyələndiriblər.

Qeyd edək ki, F. Mursaqulov 1955-ci ildə Gürcüstan Respublikasının Marneuli rayonunda anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb. 1980-ci ildən ömrünün sonunadək Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin nəşriyyatında baş redaktor vəzifəsində çalışıb.

# Moskva Dövlət Universitetinin Bakı Filialında ilk məzun buraxılışı mərasimi keçirilib

Dünən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı Filialında ilk məzun buraxılışına həsr olunmuş təntənəli mərasim təşkil edilib.

Mərasimdə Azərbaycanda rəsmi səfərdə olan Rusiya Federasiyası Dövlət Dumasının sədri Sergey Narışkin, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadovniçi, Rusiya Federasiyası Dövlət Dumasının MDB və Həmvətənlərlə Əlaqələr üzrə Komitəsinin sədri Leonid Slutski, İTAR-TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman, nazirlər, komitə sədrləri, ali məktəblərin rektorları, deputatlar, valideynlər iştirak ediblər.

Əvvəlcə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının yaranması və fəaliyyəti haqqında film nümayiş olunub.

Tədbiri açan Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, professor Nərgiz Paşayeva mərasim iştirakçılarını salamlayaraq deyib: "Bu gün Moskva Dövlət Universitetinin Bakı filialının həyatında əlamətdar tarixi gündür. Zənnimcə, bu mühüm və parlaq hadisə təkcə bu günlə bağlı deyildir. Mən bir məsələdə əminəm ki, hər şeyə qadir olan zaman gələcəkdə öz hökmünü və müdrikliyini göstərərək, bu mühüm hadisənin dövlətlərimizin həyatında, Azərbaycan və Rusiya vətəndaşlarının həyatında dolğun və parlaq qiymətini daha dəqiq verəcəkdir. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin şöhrəti bütün dünyaya məlumdur. Universitetlərin bütün zamanlarda bilik və nəcib məziyyətlərin yaradıcısı və qoruyucusu olduğunu qeyd edən Nərgiz Paşayeva demişdir ki, keşməkeşli XXI əsrin əvvəlində ölkələrimiz sülh və əmin-amanlığın, qarşılıqlı hörmət və həmrəyliyin hökm sürdüyü, elmi mübahisələrdən başqa heç bir mübahisənin olmadığı ümumi bir ev — Moskva Dövlət Universitetinin Bakı filialını yaratmağa nail olmuşlar".

N.Paşayeva ali məktəbin ilk məzunlarını təbrik edən rektor bildirib ki, universitet yüksək ixtisaslı kadrlar yetişdirib: "Əziz məzunlarımız, siz bu günün qəhrəmanlarısınız. Biz bütün bu illər ərzində sizə təkcə biliklər deyil, həm də qəlbimizin və ruhumuzun bir parçasını vermişik. Biz sizə təkcə tələbkar müəllim deyil, həm də mehriban dost olmağa çalışmışıq. Biz çalışmışıq ki, siz biliyin, elmin, təhsilin gücünə, özünüzə, ədalətə, dürüstlüyə, xeyirxahlığa inanasınız, sizi böyüdüb boya-başa çatdıranlara, qayğınızı çəkənlərə hörmət bəsləyəsiniz, həqiqi peşəkarlar, ən başlıcası isə öz ölkənizin əsl vətənpərvərləri olasınız. Möhtərəm müəllimlər, Moskva Dövlət Universitetindən olan əziz həmkarlar, sizə sonsuz minnətdarlığımı bildirmək üçün söz tapmaqda çətinlik çəkirəm. Axı, məhz siz bu dörd il ərzində universitetimizin canlı mənbəyi olmusunuz. Sizin nəcib və misilsiz əməyiniz, qəlbinizin hərarəti olmasaydı, biz belə yüksək nəticələrə nail ola bilməzdik. Bizim üçün etdiklərinizə görə qarşınızda baş əyirik".

Bakı filialının rektoru M.V.Lomonosov adına MDU-nun rektoru, akademik Viktor Sadovniçiyə xüsusi minnətdarlığını bildirib: "Sizin dəstəyiniz və ən başlıcası mənə göstərdiyiniz etimad olmasaydı, mənim üçün çox çətin olardı. Güman etmirəm ki, mən və bütün həmkarlarım nail olduqlarımızı edə bilərdik. Güman etmirəm ki, qarşımıza qoyduğumuz bütün plan və vəzifələri həyata keçirə bilərdik. Siz bizim xeyirxah himayədarımızsınız. Siz bu dörd il ərzində bizi dəstəkləyən, başa düşən, ruhlandıran, istiqamətləndirən, bütün uğur və nailiyyətlərimizi vurğulayan insansınız. Çox sağ olun!"

Rusiya Federasiyası Dövlət Dumasının sədri Sergey Narışkin mərasim iştirakçılarını salamlayaraq bu gözəl bayram tədbirində iştirak etdiyinə ürəkdən şad olduğunu bildirib. Üç il yarım bundan əvvəl Moskva Dövlət Universitetinin Bakı filialının açılışında iştirak etdiyini xatırladan S.Narışkin deyib ki, indi ona ali məktəbin ilk məzunlarına diplomlar təqdim etmək imkanı nəsib olub. Rusiya Dövlət Dumasının sədri vurğulayıb ki, M.V.Lomonosov adına MDU-nun Bakı filialının məzunları üçün bu, əlamətdar və fərəhli gündür, çünki onlar ali təhsil haqqında diplom alırlar.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadovniçi isə bildirib ki, universitetlər onilliklərlə, yüzilliklərlə təşəkkül tapır. Lakin ilk buraxılış istənilən ali məktəbin tarixində başlıca səhifələrdən biri olur: "Siz artıq tarixin bir hissəsisiniz. Gələcək nəsillər sizin barənizdə həmişə deyəcəklər: onlar universiteti ilk bitirənlərdir. Onlar müstəqil həyata ilk qədəm qoyanlardır". V.Sadovniçi ümummilli lider Heydər Əliyevin Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafında və dərinləşməsində, vahid elm və təhsil məkanının qorunub saxlanmasında böyük rolunu diqqətə çatdırıb.

Təntənəli mərasim tələbələrin ifasında ədəbi-bədii kompozisiya ilə başa çatıb.

**S.QARAYEVA**

# Sumqayıt şəhərində "Özünədəstək" layihəsinin icrasına başlanılıb

Dünən Sumqayıt şəhərində "Özünədəstək" — Birdəfəlik ünvanlı sosial yardım layihəsinə cəlb olunmaq üçün seçilmiş 15 aztəminatlı ailə ilə "Sosial müqavilə"lərin imzalanması, onlara müvafiq bildirişlərin paylanması ilə bağlı tədbir keçirilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, tədbirdə iştirak edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İlqar Rəhimov layihəyə cəlb olunmuş ailələrlə görüşündə bu proqramın icrasının aztəminatlı ailələrin daimi məşğulluğuna, onların təsərrüfatlarının inkişafına müsbət təsir göstərdiyini deyib, özünütəminetmə imkanlarını artırmaq üçün müvafiq potensiallara malik olan hər bir aztəminatlı ailənin bu layihəyə cəlb ediləcəyini vurğulayıb. Nazir müavini həmin ailələrə öz təsərrüfatlarını inkişaf etdirmək məqsədilə bu yeni layihənin yaratdığı imkanlardan daha səmərəli şəkildə yararlanmağı tövsiyə edərək, onlara bu sahədə uğurlar arzulayıb.

Görüşdə həmin ailələrə yeni layihənin xüsusiyyətləri, layihəyə cəlb olunmaq üçün ailə planının hazırlanması və s. barədə izahatlar verilib. Aztəminatlı ailələrin nümayəndələri belə bir effektli aktiv sosial müdafiə tədbirinə cəlb olunmalarını möhtərəm dövlət başçısının aztəminatlı ailələrə qayğı və dəstəyinin daha bir bariz ifadəsi kimi dəyərləndirərək, ölkə rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, sosial yardım proqramlarında iştirakçıların məsuliyyətinin, onlara dövlət tərəfindən verilən yardımların effektivliyinin artırılması məqsədilə imzalanan sosial müqavilələr respublikamızda ilk dəfə tətbiq edilir. "Özünədəstək" layihəsinə cəlb olunacaq ailələrin seçilməsində nazirlik yanında fəaliyyət göstərən, ixtisaslaşmış QHT-lərin təmsil olunduğu İctimai Şuranın üzvləri də iştirak edib.

**BƏXTİYAR**

# Patent sisteminin idarəolunması avtomatlaşdırılır

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) tərəfindən həyata keçirilən layihə ölkəmizdə "E-Azərbaycan" Dövlət Proqramı çərçivəsində patent sisteminin tam elektronlaşdırılması, e-idarəetmənin tətbiqi, əqli mülkiyyət hüquqlarının qeydiyyatı və mühafizəsi sahəsində e-xidmətlərin göstərilməsi və s. mühüm istiqamətləri əhatə edir. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında bağlanmış 11 oktyabr 2011-ci il tarixli "Əqli mülkiyyət hüquqlarının idarəetmə sisteminin avtomatlaşdırılmasına dair" qrant razılaşması layihəsi uğurla icra olunmaqdadır. Komitədən verilən məlumata görə, hazırda Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİCA) Azərbaycan nümayəndəliyinin rəhbərliyi ilə Koreyanın tanınmış "Siriussoft corp." şirkəti tərəfindən əqli mülkiyyət hüquqlarının avtomatlaşdırılmış məlumat axtarış sistemi, elektron sənəd dövriyyəsi, elektron nəşrlər, tədris mərkəzi və s.nin yaradılması istiqamətində işlər aparılır. Sistemin işə salınması üçün zəruri olan server, kompyuter və digər zəruri texniki avadanlıqların bir qismi alınaraq komitədə quraşdırılıb.

Kağız formatında daşıyıcılardan e-idarəetmə sisteminə keçməklə yaradılacaq yeni sistem milli səviyyədə texnoloji yanaşmanın istiqamətlərinin müəyyənləşdirilməsinə, Azərbaycanda fəaliyyət göstərən şirkətlər, elmi-tədqiqat institutları, universitetlər, tədqiqatçılara patent sisteminə dair informasiyaların asanlıqla əldə edə bilməsinə yardım edəcək. Sistemin tətbiqi elmi-tədqiqat işlərinin genişlənməsinə, ixtiraların, innovasiya məhsullarının çoxalmasına və informasiya texnologiyaları bazarının inkişafına səbəb olacaq. Tədris Mərkəzinin yaradılmasında əsas məqsəd əqli mülkiyyət sahəsi üzrə mütəxəssislərin, patent müvəkkillərinin hazırlanması, əqli mülkiyyət obyektləri barədə məlumatların ictimaiyyətə çatdırılmasından ibarətdir.




Layihənin əsas diqqət çəkən məqamlarından biri də əqli mülkiyyət hüququ əldə etmək istəyən iddiaçıların dövlət rüsumu, ekspertiza və s. ödəmələrinin elektron ödəniş sistemi vasitəsilə həyata keçirilməsidir. Artıq bununla bağlı Komitənin Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzi (AzPatent) ilə "Qolden Pay" MMC arasında müqavilə də imzalanıb.

Layihə Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2012-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" və "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli, 429 nömrəli Fərmanının icrası çərçivəsində Komitənin qarşısında duran tədbirlər planının tərkib hissəsinə daxildir.

**BƏXTİYAR**

## "Rusiya ilə təhsil sahəsində səmərəli əlaqələrimiz var"

"Rusiya ilə təhsil sahəsində son 10 ildəki əməkdaşlığa nəzər salsaq, bu ölkə ilə Azərbaycan arasında təqaüdlər proqramının həyata keçirildiyini görərik". Bunu "525"ə açıqlamasında təhsil naziri Misir Mərdanov deyib. Nazir qeyd edib ki, iki ölkə arasında təhsil sahəsində səmərəli əlaqələr qurulub. Bu illər ərzində yüzlərlə azərbaycanlı gənc Rusiyanın müxtəlif ali məktəblərində seçdikləri ixtisas üzrə təhsil alır. Hazırda 250 azərbaycanlı gəncin məhz bu təqaüdlər çərçivəsində Rusiyada təhsilini davam etdirdiyini deyən nazir deyib ki, bunlardan bir hissəsi də TQDK-nın Rusiya Azərbaycanlıları Konqresi ilə birgə təqdim olunan seçim nəticəsində müəyyən olunmuş gənclərdir: "Onlar əsasən, Rusiyada müvəqqəti olaraq yaşayan, lakin Azərbaycan vətəndaşlığı olan gənclərdir. Eyni zamanda dövlət proqramı çərçivəsində də Rusiyada təhsil alan gənclər də var. Bu gənclər həmin proqram çərçivəsində 2007-2015-ci illərdə xaricdə təhsil üzrə dövlət proqramı üçün təsdiq olunmuş ali məktəblər siyahısında Rusiyanın 55 ali məktəbi yer alıb. İndiyədək 90-dək Rusiyanın ali məktəblərinə, xüsusilə də texniki mühəndislik ixtisasları üzrə tələbələr göndərilib. Hazırda isə, 60-a yaxın tələbə məzunumuz Rusiyada təhsil almaqdadır".

## "Lisey və gimnaziyaların I sinfinə imtahan yolu ilə qəbul aparılması doğru addımdır"

"Təhsil Nazirliyi lisey və gimnaziyaların I sinfinə imtahan yolu ilə qəbul aparılmasını doğru addım hesab edir". Bu fikri nazir Misir Mərdanov söyləyib. Təhsil naziri daha sonra deyib: "Çünki insanın əlindəki 5 barmağın eyni olmadığı kimi, insanların da müəyyən bilik və bacarıq hədləri var". Nazirin sözlərinə görə, belə məktəblər yaradılıb ki, ən qabiliyyətli uşaqlar ora qəbul olsunlar və ölkəmizin intellektual potensialını daşıyacaq: "Valideynlər bəzən narahat olurlar. Bu məktəblərə yüksək bal toplayan uşaqlar həmin məktəblərə daxil olurlar. Qazana bilməyənlər paytaxtda olan adi məktəblərdə oxuya bilərlər. Bu yolla yüksək bal toplayan qabiliyyətli uşaqlar həmin təhsil müəssisələrinə qəbul olunacaq. Əgər müəyyən müddətdən sonra onların istedadları üzə çıxarsa, yenidən lisey və gimnaziyalara sənəd verə bilərlər. Təki istedadlı uşaqlar olsun, onlar təhsilə xidmət etsinlər".

**S.QARAYEVA**

## *Bayram Hüseynzadə:* "Təhsil nazirinin dediklərini siyasiləşdirməyə çalışanlar var"

Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bayram Hüseynzadə təhsil naziri Misir Mərdanovun jurnalistlərlə son görüşündə verdiyi bəzi açıqlamaların mətbuatda şişirdilməsinə etiraz edir. B. Hüseynzadə "525"ə açıqlamasında bildirib ki, nazir jurnalistlərin "Litvada müəllimlərin əmək haqqı Azərbaycanla müqayisədə hansı səviyyədədir" sualına cavabı bəzi mətbuat orqanları tərəfindən müxtəlif cür hallandırılıb: "İclasdan əvvəl nazir jurnalistlərə müsahibə verdi, həmin vaxt mən də onun yanında idim. Mən həmin tədbirdə də axıra qədər iştirak etmişəm. Nazir iclasda çıxışında da bildirdi ki, Litva Respublikasından yenicə qayıdıb və jurnalistlər maraqlanıb ki, həmin ölkədə müəllimlərin əmək haqqı Azərbaycanla müqayisədə necədir? Nazir də bildirib ki, bizdən təxminən iki dəfəyə yaxın üstündür. Eyni zamanda nazir deyib ki, Litva Avropa ölkəsidir, orada yaşayış səviyyəsi yüksəkdir və orada müəllimlərin əmək haqqının yüksək olması da çox təbiidir. Təəssüflər olsun ki, bəzi kütləvi informasiya vasitələri və bəzi jurnalistlər nazirin dediklərini şişirtməyə və siyasiləşdirməyə çalışır, kimlərinsə maraqlarına xidmət edən məlumatlar vermək istəyirlər. Biz ölkə mətbuatında bu formada şişirdilmiş məlumatları təkzib edirik".

**S.QARAYEVA**

# Azərbaycanda pensiyada olma müddəti orta hesabla 16 il təşkil edir

Son vaxtlar bəzi ekspertlər tərəfindən Azərbaycanda yaşa görə pensiya alanların pensiyada olma müddətinin kişilər üçün 3 il, qadınlar üçün isə 5 il təşkil etdiyi barədə ictimaiyyəti çaşdıran məlumatlar yer almaqdadır. Dövlət Sosial Müdafiə Fondu (DSMF) bununla bağlı açıqlama yayıb. DSMF bildirir ki, həmin məlumatlar həqiqətə uyğun deyil və Fondun avtomatlaşdırılmış mərkəzi məlumat bazasında mövcud olan informasiyalarla tam ziddiyyət təşkil edir.

DSMF-nin müasir standartlara cavab verən mərkəzi məlumat bazasında ölkə əhalisinin 3/1-i, yəni 1 275 min nəfər pensiyaçı və 2 milyondan artıq sığortaolunan barədə dəqiq məlumatlar toplanıb. Fondun mərkəzi məlumat bazasında olan göstəricilərə əsasən, son 6 ildə yaşa görə pensiya alan və vəfat etmiş qadınların orta yaşı 77,2, kişilərin orta yaşı isə 75,7 olub. Hazırda yaşa görə pensiya alanların pensiyada olma müddəti qadınlar üçün 19 il, kişilər üçün isə 12,7 il təşkil edir. Ümumilikdə isə Azərbaycanda pensiyada olma müddəti orta hesabla 16 ildir.

Bundan başqa, "Əmək pensiyaları haqqında" Qanuna əsasən, güzəştli şərtlərlə əmək pensiyası hüququ olan şəxslər daha erkən pensiyaya çıxırlar və bu kateqoriyadan olan vətəndaşların pensiyada olma müddəti orta hesabla 22 il təşkil edir.

**BƏXTİYAR**

# Hidroloji proqnozlar özünü doğruldub



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti 2012-ci ilin gursululuq dövrünün (aprel, may, iyun) başa çatması ilə əlaqədar çoxillik məlumatlarla bağlı müqayisəli təhlil aparıb, verilmiş proqnozların özünü doğrultması qiymətləndirilib. Nazirlikdən verilən məlumata görə, aparılan analitik araşdırmalar Milli Hidrometeorologiya Departamentinin gursululuq dövrü üzrə çaylarda gözlənilən sululuğa dair verdiyi hidroloji proqnozların metodikaya uyğun olaraq özünü doğrultduğunu müəyyən edib. Belə ki, gursululuq üzrə proqnozlar aprel ayında 82, may ayında 88, iyun ayında isə 67 faiz özünü doğruldub.

Hidrometeoroloqların temperatur və yağıntı ilə bağlı aylar üzrə (aprel, may, iyun) verdiyi proqnozlar da faktiki vəziyyətə görə özünü doğruldub:

—aprel ayında temperatur üzrə 92, yağıntı üzrə 63, ümumilikdə 78 faiz;

—may ayında temperatur üzrə 98, yağıntı üzrə 69, ümumilikdə 84 faiz;

—iyun ayında isə temperatur üzrə 97, yağıntı üzrə 89, ümumilikdə 93 faiz.

Qeyd edək ki, dünya təcrübəsində aylıq meteoroloji proqnozların özünü doğrultması 60-70 faiz təşkil edir.

**BƏXTİYAR**

# Kazanda beynəlxalq tədbir keçirilib

Rusiya Federasiyası Tatarıstan Respublikasının Bilyər şəhərində Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu, Tatarıstan hökuməti və "Selet" Tatarıstan Tələbə Liqasının təşkilatçılığı ilə keçirilən 2-ci Beynəlxalq İƏT Modeli Qlobal Sammitinin (xarici işlər nazirləri toplantısı) simulyasiya mərhələsinin rəsmi açılış mərasimi keçirilib.

İslam Konfransı Gənclər Forumundan qəzetimizə verilən məlumata görə, mərasimdə Tatarıstan Respublikasının prezidenti Rüstəm Minnixanov, Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri və İƏT Gənclər Forumunun (İKGF) baş katibi Elşad İskəndərov, Türkiyə gənclər və idman nazirinin müavini Yusuf Təkin, Tatarıstan Prezident Administrasiyasının idarə rəisi Marat Qatin və Malayziya Beynəlxalq İslam Universitetinin prorektoru Sərdar Dəmirəl çıxış edərək sammit iştirakçılarını təbrik ediblər.

Xatırladaq ki, iyulun 4-də seminar hissələri təntənəli mərasimlə başlamış tədbirin bu gün xarici işlər nazirləri toplantısı simulyasiyası hissəsi olan əsas plenar mərhələsinin rəsmi açılışı olub.

Tədbirdə çıxış edən Tatarıstan prezidenti Rüstəm Minnixanov Tatarıstanın İƏT-ə üzv ölkələr ilə əməkdaşlığına, xüsusən bu ölkələrin gənclər hərəkatında iştirakına xüsusi önəm verdiyini qeyd edərək gələcəkdə də İKGF-nin layihələrində aktiv iştirakı hazır olduğunu bildirib.

İKGF baş katibi Elşad İskəndərov İƏT modelinin əhəmiyyəti və müsəlman ölkələri gənclərinin inkişafına yönəlmiş missiyası haqda söz açıb. Nitqinin sonunda o, Tatarıstanın "Sələt" Gənclər Hərəkatının İKGF-yə üzv qəbul olunduğunu təsdiq edən şəhadətnaməni təşkilatın sədri Timur Süleymanova təqdim edib.

Kazan sammitində İƏT-ə üzv olan 50-ə yaxın ölkədən gəlmiş 200-ə qədər tələbə və gənc lider iyul ayının 3-dən 10-na qədər simulyasiya oyunlarında keçid ölkələri olan Tunis, Liviya və Misirdə siyasi stabilləşmə, nüvə enerjisinin istifadəsi, Balkan ölkələrində müsəlman azlıqları ilə bağlı olan məsələləri müzakirə ediblər. Gündəmdə gənc liderlər tərəfindən müzakirə olunacaq əsas bəndlərdən biri Azərbaycanın işğal olunmuş ərazilərindəki hazırkı vəziyyətdir. Bununla əlaqədar ötən gün model sammit iştirakçıları üçün "Xocalıya Ədalət" Beynəlxalq İnformasiya Kampaniyasının təqdimatı keçirilib. Bu gün iyulun 10-da tədbirin yekun qətnaməni qəbul ediləcək.

**S.MÜRVƏTQIZI**

# Təhsil Nazirliyi ittihamlara cavab verib

Azərbaycan Təhsil Nazirliyi Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadənin APA-ya müsahibəsində səsləndirdiyi fikirlərlə bağlı məlumat yayıb. Nazirlikdən APA-ya daxil olan məlumatda bildirilir ki, son günlər Tələbə Qəbulu üzrə Dövlət Komissiyası sədrinin müsahibələrində göstərdiyi məlumatlarla bağlı Təhsil Nazirliyinə çoxsaylı müraciətlər daxil olur. Həmin müraciətlərdə ölkənin təhsil ictimaiyyəti, ziyalılar bu "şok" açıqlamaların nə dərəcədə həqiqətə uyğun olub olmaması ilə maraqlanırlar. Bununla əlaqədar bildirilir ki, son aylar müxalifət mətbuatının əsas qəhrəmanına çevrilmiş iqtidar nümayəndəsi Məleykə Abbaszadənin Təhsil Nazirliyinin fəaliyyəti ilə bağlı verdiyi müsahibələrindəki məlumatlar araşdırılaraq onların əsassız, qərəzli və böhtan olduğu müəyyən edilib: "Faktlara müraciət edək. Komissiya sədri iddia edir ki, ötən dərs ilində ölkənin ümumtəhsil məktəblərinin IX və XI siniflərini bitirən 22 min şagirdin aqibəti məlum deyil və bu Təhsil Nazirliyinin "dəhşətli pripiskası" kimi təqdim edilir. Reallıq isə bundan ibarətdir ki, IX və XI sinifləri bitirən 220 min şagirddən imtahanda iştirak etmədiyi güman edilən 22 min şagird imtahandan azad edilən, illik qeyri-müvəffəq qiymətlər aldığına görə imtahanlara buraxılmayan və az hissəsi isə müxtəlif səbəblərdən imtahanlarda iştirak etməyənlərdir. Onu da diqqətə çatdırırıq ki, təhsil sahəsində qiymətləndirmə məsələlərinə az-çox bələd olan mütəxəssislər yaxşı bilirlər ki, belə hallar hər tədris ilində olur və heç bir "dəhşətli pripiska"dan söhbət belə gedə bilməz.

Təhsil ictimaiyyətinin fikrincə, M. Abbaszadənin son illərdə müntəzəm olaraq kütləvi informasiya vasitələrində təhsil, məktəb, müəllim haqqında söylədikləri əsassız, qərəzli fikirlər ölkədə təhsili və məktəbi nüfuzdan salmağa yönəlmiş cəhddən başqa bir şey deyil. M.Abbaszadənin Təhsil Nazirliyinin indiyə kimi keçirdiyi imtahanların gözdən pərdə asmaq məqsədi daşıması barədə fikrinə gəldikdə isə bildiririk ki, son illərdə Təhsil Nazirliyinin apardığı qiymətləndirmə islahatları, o cümlədən buraxılış imtahanları beynəlxalq təcrübəyə əsaslanıb və Azərbaycan hökumətinin təsdiq etdiyi Konsepsiyaya uyğun həyata keçirilib. Bu mənada TQDK sədrinin fikirləri qeyri-ciddidir və hansı arqumentlərə əsaslandığı məlum deyildir. Halbuki kifayət qədər əsaslı arqumentlər var ki, TQDK-nın həyata keçirdiyi imtahanların heç bir elmi, metodiki və pedaqoji əsası yoxdur və dünyanın heç bir ölkəsində bu üsulla ali məktəblərə qəbul imtahanları keçirilmir. Sonda onu da qeyd etməyi vacib hesab edirik ki, yaxşı olar ki, hər bir dövlət qurumu ona tapşırılmış işlə məşğul olsun və başqa dövlət qurumunun işinə əsassız müdaxilələr etməsin.

Təhsillə bağlı bu və ya digər fikirlər yürüdən insanlara, mətbuat orqanlarına məsləhət bilirik ki, bu işə mümkün qədər həssas, məsuliyyətlə yanaşsınlar, çünki onların hər biri Azərbaycan məktəbinin yetirməsidir".

# BAMF BMT-də donor və tərəfdaş təşkilatların tədbirini keçirib





Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) BMT-də dayanıqlı və əsaslı inkişaf istiqamətində donor və tərəfdaş təşkilatların tədbirini keçirib. BAMF-nin İnformasiya Departamentindən APA-ya verilən məlumata görə, bu tədbir ECOSOC-un "Minilliyin məqsədlərinə nail olmaq üçün bütün səviyyələrdə əsaslı, dayanıqlı və bərabər iqtisadi inkişaf çərçivəsində kasıbçılığın aradan qaldırılması üçün bacarıqların və faydalı işlərin dəstəklənməsi" başlığı altında yüksək səviyyəli toplantısında baş tutub.

Qeyd olunub ki, BAMF iyulun 2-9-da Nyu-York şəhərində, BMT-nin Baş Qərargahında BMT-nin İqtisadi-Sosial Şurasının (ECOSOC) Yüksək Səviyyəli Toplantısına qatılıb. Bu toplantıda BAMF "Dayanıqlı və geniş inkişaf istiqamətində işləyən donor və partnyorların toplantısı" adlı tədbirini keçirdi. Tədbirdə vətəndaş cəmiyyəti və BMT-nin donor icmasını təmsil edən nümayəndələr iştirak ediblər. ECOSOC-un QHT-lər Bölməsinin rəhbəri cənab Andrey Abramov Azərbaycanın BMT-dəki missiyası tədbirdə yaxından iştirak edib. Son illər dayanıqlı və geniş inkişaf istiqamətində həyata keçirilən işlərdə BAMF-a ən çox dəstək göstərən ABŞ Dövlət Departamentini xanım Kone Hensman təmsil edib.

Açılış sözü ilə tədbiri açıq elan edən BAMF-ın sədri Umud Mirzəyev kasıbçılıq və aclıq məsələsinə müraciət edərək bu sahədə mövcud olan qlobal strategiyanı müzakirə etmək üçün dayanıqlı və əsaslı inkişafa dəstək olan donorlar və tərəfdaşlarla görüşməyə ehtiyac olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Mili Məclisinin üzvü Qənirə Paşayeva vətəndaş cəmiyyətinin inkişafı üçün Azərbaycan hökumətinin göstərdiyi səylərdən söz açıb.

Nazirlər Kabineti Aparatının qaçqınların, məcburi köçkünlərin və miqrasiya problemləri üzrə şöbəsinin müdir müavini, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının nümayəndəsi Məhəmməd Məhərrəmov qaçqınlar və məcburi köçkünlər sahəsində Azərbaycan hökumətinin gördüyü işlərdən söz açıb.

BMT QAK-ın Nyu-York ofisinin direktoru Udo Canz məcburi köçkünlərin vəziyyətinin həmişə gündəlikdə olmasının vacibliyini qeyd edib. Azərbaycanda məcburi köçkün məsələsinə toxunan Udo Cans bu istiqamətdə gələcəkdə görüləcək işlərin hələ çox olduğunu bildirib və deyib ki, Dağlıq Qarabağ məsələsi həll edildikdən sonra yeni problemlərin çözülməsinə ehtiyac olacaq.

BMT İP-nin Mərkəzi Asiya və Azərbaycan üzrə bölməsinin rəhbəri Jan Harfist iştirakçılara müraciət edərək deyib: "Dayanıqlı insan inkişafı BMT İP-nin fəaliyyətinin əsasını təşkil edir. Kasıbların və marginləşmiş (zəif) qrupların ehtiyacları inkişaf prioritetləri olaraq qaldıqca, iqtisadi inkişaf iş yerləri yarada və kasıbçılığı aradan qaldıra bilməyəcək".

Digər fikir UNİSEF-un nümayəndəsi Suba Jayasekanan tərəfindən söylənilib. O, diqqəti kasıbçılığın aradan qaldırılması istiqamətində YUNİSEF-in müraciət etdiyi yeni fəaliyyətdən — "Uşaqların hüquqları və biznes prinsipləri" layihəsindən söhbət açıb.

BMT-nin İctimai İnformasiya Departamentinin Azərbaycan nümayəndəsi Envera Selimoviç əhali arasında bərabər dayanıqlı inkişaf sahəsində QHT-lərin, xüsusilə də BAMF-ın fəaliyyətini yüksək dəyərləndirib.

Tədbirdə " Dayanıqlı inkişaf istiqamətində əsas məsələlər kasıbçılıq, gender balansı, uşaq haqları, əlillər, təhsil, səhiyyə və ətraf mühit məsələsidir" deyən ECOSOC-un QHT-lər Bölməsinin rəhbəri Andrey Abramov QHT-lərə, xüsusilə də BAMF-a öz fəaliyyətini genişləndirməyi, dayanıqlı inkişaf istiqamətində dəstəyə ehtiyacı olan ölkələrdə də aksiyalar həyata keçirməyi tövsiyə edib.

ABŞ Dövlət Departamentinin nümayəndəsi Kone Hensman BAMF-ın Azərbaycanda vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi sahəsində gördüyü işlərdən məmnun olduğunu, təşkilatın bu istiqamətdə aparılan işlərin önündə getməsindən təsirləndiyini ifadə edib.

Sonda BAMF-ın sədri U. Mirzəyev bütün iştirakçılara tədbirin uğurlu keçməsində gördükləri işə görə dərin təşəkkürünü bildirib.

Xatırladaq ki, BAMF ECOSOC-un xüsusi məşvərətçi statuslu üzvüdür və dəfələrlə BMT-nin Yüksək Səviyyəli Toplantılarında şifahi və yazılı müraciətlərlə çıxış edib.

# Rusiyalı politoloq: "Azərbaycanla Ermənistan arasında müharibə olmayacaq"

## "ƏSAS GEOSİYASİ OYUNÇULAR CƏNUBİ QAFQAZDA BÖYÜK MÜHARİBƏNİN BAŞLANMASINDA MARAQLI DEYİLLƏR"

**(Əvvəli 1-ci səh.)**

***— Ötən ay ABŞ-ın dövlət katibi Hillari Klintonun regiona səfəri baş tutdu. Azərbaycanla Ermənistan sərhədində gərginliyin yaşanması həmin vaxta təsadüf etdi. Bunu necə şərh edərdiniz?***

— Bəli, bəzi siyasi ekspertlər bunun təsadüf olmadığını söyləyirlər. Azərbaycan-Ermənistan sərhədində atəşkəsin Qərbin razılığı ilə ciddi şəkildə pozulduğu iddia olunur. Lakin bu, qətiyyən belə deyil. Çünki müharibənin başlanması ABŞ-ın da marağına cavab vermir. ABŞ qoşunları hələ də Əfqanıstandadır. ABŞ qorxur ki, Cənubi Qafqazda münaqişənin yenidən alovlanması onların Əfqanıstanda uğursuzluğa düçar olmasına gətirib çıxara bilər. Yəni, Dağlıq Qarabağda müharibənin başlanması Əfqanıstana yüklərin daşınmasında mühüm rol oynayan şimal marşrutunda problemlər yaradacaq. Belə demək mümkündürsə, Əfqanıstana yüklərin daşınması yolu bağlanacaq.

***— Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə məşğul olan ATƏT-in Minsk Qrupunun fəaliyyətini necə qiymətləndirirsiniz?***

— ATƏT-in Minsk Qrupunun 20 il ərzində fəaliyyəti ondan ibarət olub ki, münaqişə tərəfləri yeni müharibəyə başlamayıblar. Fikrimcə, bu təşkilatın fəaliyyətinin yeganə nəticəsi hələlik müharibənin başlanmasına şərait yaratmaması və danışıqlar prosesinin davam etdirilməsində münaqişə tərəflərinə yardım etməsidir.

# Arif Hacılı: "Müsavat Partiyasının prezident seçkisində hökmən namizədi olacaq"



"Müsavat Partiyasının prezident seçkisində hökmən namizədi olacaq. Ancaq Müsavat Partiyasının namizədi partiyanın üzvü olacaq, yoxsa kənar şəxs olacaq, bu məsələ yəqin ki, seçki prosesində müəyyənləşəcək. Yəni Müsavat Partiyası elə təşkilat deyil ki, öz namizədi olmadan seçkilərdə iştirak etsin". Bu fikirləri Müsavat Partiyası Mərkəzi İcra Aparatının sədri, başqan müavini Arif Hacılı APA-ya müsahibəsində bildirib. Vahid namizəd məsələsinə təmsil etdiyi partiyanın münasibətinə gəlincə, A.Hacılı hələlik Müsavatın bu barədə konkret qərarı olmadığını söyləyib: "Amma mən Arif Hacılı olaraq hesab edirəm ki, demokratik düşərgə seçkilərdə vahid namizədlə iştirak etsə, bu, seçkilərdə uğur qazanmağa yardımçı olan əsas amillərdən biri olar".

"Müttəfiqiniz olan AXCP də seçkilərdə öz namizədi ilə iştirak etməkdə israrlı görünür. Bu, seçkidə səslərin parçalanmasına yol açmazmı?" sualına isə A,Hacılı belə cavab verib: "Məncə, burada heç bir qeyri-adi məsələ yoxdur. Yəni AXCP üzvlərinin namizədinin Əli Kərimli olması tam təbiidir. Əksinə, belə olmasaydı, qeyri-adi və qeyri-təbii olardı. Yaxud da, mənim və partiyamızın üzvlərinin namizədinin Müsavat Partiyasının başqanı İsa Qəmbər olması tam təbiidir. Məsələn, mənə irad tuturlar ki, nəyə görə Arif Hacılı həbsxanadan çıxandan sonra prezidentliyə namizədinin İsa Qəmbər olduğunu bəyan etdi. Mənə verilən suala uyğun olaraq bu fikri səsləndirmişəm. Prezidentliyə namizədimin İsa Qəmbər olduğunu bildirməməyim, bu suala cavabdan yayınmağım suallar yarada bilər. Ancaq prezidentliyə namizədimin İsa Qəmbər olması o qədər təbiidir ki, buna təəccüblənən insanlar ya sadəlövhdürlər, ya da qərəzlidirlər. Ancaq AXCP üzvlərinin prezidentliyə namizədinin Əli Kərimli olması, Müsavat Partiyası üzvlərinin İsa Qəmbər olması heç də o demək deyil ki, biz seçkilərdə vahid namizədlə iştirak edə bilmərik".

A.Hacılı Müsavat Partiyasının qurultayında başqan vəzifəsinə namizədliyini irəli sürüb-sürməyəcəyi məsələsinə də toxunub: "Mənim bu məsələ ilə bağlı mövqeyim stabildir. Əgər qurultay ərəfəsi və qurultay zamanı görsəm ki, Azərbaycan cəmiyyətinin, demokratik düşərgənin və partiyanın mənafeləri mənim başqanlığa namizəd olmağımı tələb edir, başqanlığa namizədliyimi irəli sürəcəyəm".

# Avropa İttifaqı Şurasının prezidenti müxalifətlə niyə görüşmədi?

Məlum olduğu kimi, Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Herman van Rompey bu günlərdə ölkəmizdə rəsmi səfərdə oldu. O, Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər tərəfindən qarşılandı. Beynəlxalq Aeroportun ali qonaqlar üçün salonunda H.Rompeylə Y.Eyyubov arasında qısa protokol söhbəti baş tutdu. Rəsmi qarşılanma mərasimindən sonra qonaq Azərbaycanın tarixi, mədəni yerləri ilə tanış oldu. O, daha sonra Azərbaycan dövlət başçısı İlham Əliyev tərəfindən qəbul edildi.

Bununla yanaşı Rompey digər dövlət rəsmiləri, hökumət nümayəndələri ilə görüş keçirərək, Dillər Universitetinin fəxri doktoru adına layiq görülərək, bu universitetin rektoru, millət vəkili Səməd Seyidov tərəfindən qarşılandı.

Səfər çərçivəsində diqqət çəkən məqam Aİ prezidentinin müxalifət nümayəndələri ilə görüşməməsi oldu. ABŞ Dövlət Katibi Hillari Klintonun səfəri zamanı da bu hal müşahidə edildi. H.Klinton da dövlət və hökumət nümayəndələri ilə görüşsə də, müxalifət təmsilçiləri ilə görüş keçirmədi.

İctimai Palatanın təmsilçilərinin ölkəyə səfər edən nüfuzlu qonaqların hər vəchlə onlarla görüşəcəyini öncədən bəyan etməsi, lakin belə bir görüşün baş tutmaması müxtəlif sualara yol açır.

Bununla müxalifətin İctimai Palata qanadının növbəti dəfə ifşa olunduğunu deyən millət vəkili Aydın Mirzəzadənin fikrincə, bu siyasi təşkilat cəmiyyətə dezinformasiya yayır. O, Azərbaycana səfərə gələn qonaqların İctimai Palatanın nümayəndələri ilə görüşdə maraqlı olmadığın bildirib: "Müxalifətin İctimai Palata adlanan qurumu belə bir təəssürat yaratmağa çalışır ki, guya Azərbaycana səfərə gələn nüfuzlu rəsmi qonaqlar onlarla görüşdə maraqlıdırlar. Sözügedən düşərgədə hesab edirlər ki, bu qonaqlar onların siyasi çəkisini qiymətləndirərək, Azərbaycan haqqında real fikri onlardan öyrənməlidirlər. Lakin bilmək lazımdır ki, xarici ölkə rəsmiləri, beynəlxalq təşkilatların rəhbərləri Azərbaycana dövlətlə münasibət qurmaqdan ötrü gəliblər. Onları Azərbaycan daxili siyasət maraqlandırmır. Onlar ancaq dövlətin dövlət kimi vətəndaş qaraşısında öz öhdəsini yerinə yetirməsi maraqlandırır. Artıq növbəti dəfədir ki, görürük həmin nüfuzlu qonaqlar yalnız dövlət, eləcə də hökumət rəsmiləri ilə görüşür və Azərbaycanda demokratiyanın qorunması barəsində fikir mübadiləsi aparırlar. Onların bu və ya digər siyasi təşkilatlarla görüşməsi palanlarına daxil deyil. Başqa sözlə desək, onları müxalifətlə görüş qəti maraqlandırmır".

A.Mirzəzadə dünya praktikasında rəsmi səfərlərdə mütləq həmin dövlətlərin rəsmi dairələri ilə görüş keçirilməsi ənənəsinn olmadığını deyib. Onun sözlərinə görə, ölkəmizə səfərə gələn heç bir şəxs artıq müxalifətlə görüşə can atmır: "Əvvələr hansısa beynəlxalq xarici ölkə rəsmiləri Azərbaycana gəldikdə öklə siyasiləri ilə görüşürdülər. Ancaq bu gün ona ehtiyac yoxdur. Və artıq buna heç kim can atmır. Əgər müxalifət "xarici ölkə rəsmiləri ancaq Azərbaycan müxalifəti ilə görüşdə maraqlıdır" fikrini ortaya atmasaydı, bu məqama diqqət edən belə olmazdı. Nöbəti dəfə görürük ki, Azərbaycana rəsmi səfərə gələnləri dövlətlə münasibətlər və dövlətin öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirməsi maraqlandırır. Bu məsələdə isə Azərbaycan dövlətinin problemi yoxdur".

Azərbaycan dövləti vətəndaşların hüquq və azadlıqlarının qorunmasın sahəsində öz vəzifəsini yerinə yetirdiyini qeyd edən millət vəkili hakimiyyətin dövlətin daha da möhkəmlənməsinə çalışdığını söyləyib. Onun fikrincə, xarici qonaqların müxalifət təmsilçiləri ilə görüşməməsini iqtidar-müxalifət münasibəti kimi xarakterizə etmək doğru olmaz: "Bununla yanaşı dövlətimiz Azərbaycanın beynəlxalq aləmdə tutduğu yerin nüfuzunu artırmağa, eləcə də dövlətçiliyə xidmət göstərən digər adımlların icrasına çalışır. Hesab edirəm ki, xanım Hillari Klintonun və cənab Rompeyin addımları kimi yanaşmalara bundan sonra xarici qonaqların Azərbaycana səfəri zamanı dəfələrlə rast gələcəyəyik. Fikrimcə, əslində bunu, yəni xarici qonaqların müxalifət təmsilçiləri ilə görüşməməsini iqtidar-müxalifət kimi götürmək düzgün deyil. Çünki Azərbaycan hakimiyyəti öz üzərinə düşən vəzifəni yerinə yetirir. Və beynəlxalq təşkilatlar da bunu görürlər. Bu gün bunu iqtidar-müxalifət münasibəti və ya kiminsə uğuru kimi qiymətləndirmək düzgün olmaz. Azərbaycan dövləti Azərbaycan hakimiyyətinin timsalında hazırda beynəlxalq arenada yüksək nüfuza malikdir".

**Aqil LƏTİFOV**

# Nəsib Nəsibli: "Azərbaycan-İran arasında münasibətlərin gərginliyin yaranması İran daxili proseslərlə əlaqədardır"



"İran ətrafında baş verən hadisələr bu bölgənin, o cümlədən Azərbaycanın gələcəyini müəyyən edəcək proseslərdir. Həm də aydın məsələdir ki, İran ətrafında baş verən hadisələr bundan sonra daha da sürətlənməyə doğru gedəcək". Bu barədə mətbuata açıqlamasında Azərbaycanın İrandakı keçmiş səfiri, politoloq Nəsib Nəsibli deyib. O hesab edir ki, İran ətrafında vəziyyətin bu həddə qədər yüksəlməsinin variantlarından biri Tehran tərəfindən öz nüvə proqramının hərbi məqsədlər üçün istifadəsinin dayandırılması ola bilər: "Vəziyyətin inkişafının digər variantı isə nüvə proqramından imtina etməsi ilə bağlı İrana Qərb tərəfindən təzyiqlərin artırılmasıdır. Başqa sözlə desək, hadisələrin birinci, yaxud ikinci variant üzrə inkişaf etməsi bölgədə müxtəlif vəziyyətlər yarada bilər. Lakin istənilən halda bu iki variantlardan birinin reallaşması ilə İranın bölgə ölkələrinə təsirinin artacağı gözlənilir. İran ətrafında son vaxtlar cərəyan edən hadisələr göstərir ki, vəziyyətin inkişafı ikinci istiqamət üzrə gedəcək. Bunu Qərb ölkələri rəhbərlərinin bəyanatları da sübuta yetirir. Bununla belə, onların bəyanatları artıq İranı qorxutmaq üçün edilmir, əksinə konkret və real xarakter daşıyır. Qərb ölkələri İranın nüvə silahına malik olmasına razı olmayacaqlar". Ekspert hesab edir ki, bu gün nüvəyə malik olan İran Rusiyanın özü üçün də təhlükə törədəcək. Bunu Rusiya özü də yaxşı dərk edir. Bununla yanaşı, Rusiya bu məsələdə öz milli maraqlarını nəzərə alaraq çıxış edir və bundan faydalanmağa çalışır.Daha doğrusu, Rusiya dünyada sabitliyin təminatçısı imicini qazanmağa cəhd göstərərək, özünün Qərblə İran arasında oynadığı vasitəçilik missiyasından faydalanmağa çalışır. N.Nəsibli Qərbin İrana qarşı getdikcə artan hərbi, siyasi və diplomatik təzyiqindən Azərbaycanın öz məqsədləri üçün istifadə edə biləcəyini qeyri-mümkün hesab edir: "Başqa sözlə desək, Azərbaycan Qərblə İran arasında vasitəçi deyil ki, bu və ya digər tərəfin Qarabağ münaqişəsinin həll edilməsi ilə bağlı razılığını alsın. Bundan əlavə, Azərbaycanın Qərblə İran arasında baş verməsi ehtimal edilən müharibədə rolu cüzi ola bilər. Azərbaycanla İran arasında münasibətlərin pisləşməsi açıq-aydın faktdır. İki ölkənin münasibətlərində belə bir gərginliyin yaranması daha çox İranın daxilində baş verən proseslərlə əlaqədardır. İkitərəfli münasibətlərdə gərginliyin yaranmasının kökündə İranda hüquqları tapdanan və sıxışdırılan 30 milyon azərbaycanlının yaşaması dayanır. Bu amil Azərbaycan və İran arasında münasibətlərin gərginləşməsinə əhəmiyyətli təsirini göstərir və qardaş və dost münasibətlərinin olmasına dair çoxsaylı bəyanatların səslənməsinə baxmayaraq, münaqişəli vəziyyətin meydana çıxmasına səbəb olur". BMT Təhlükəsizlik Şurasında İran ilə bağlı qətnamə qəbul olunduğu təqdirdə, Azərbaycan bu beynəlxalq qurumun qeyri-daimi üzvü olaraq, hansı mövqeyi tutmalı olduğuna gəlincə, N.Nəsibli deyib ki, İran ətrafında baş verən hadisələrin bilavasitə Azərbaycana da aidiyyəti var və eyni zamanda, bu məsələ bütün dünya üçün problem yaradır. Axı İranın nüvə silahına malik olması Azərbaycanın təhlükəsizliyinə təhlükə törədə biləcək çox təhlükəli silah ola bilər: "Lakin Azərbaycan öz üzərinə vasitəçilik missiyasını götürə bilməz, ya da Qərblə İran arasında münaqişədə başlıca rol oynaya bilməz. Buna görə də, Azərbaycanın mövqeyi BMT TŞ-da İranla bağlı qətnamə qəbul edildiyi təqdirdə konkret vəziyyətdən asılı olmalıdır".

**PƏRVANƏ**

# Hacı Məmmədov görüşlərdən imtina edib

Daxili İşlər Nazirliyinin sabiq əməliyyat müvəkkili, adam oğurluğunda və çoxsaylı qətllərdə təqsirli bilinərək ömürlük azadlıqdan məhrum edilən Hacı Məmmədov heç kimlə görüşmək istəmir. Bunu Modern.az-a saytına açıqlamasında İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov deyib.

"Hacı Məmmədov daha heç kimi görmək istəmir, yaddan çıxarılmasını istəyir. Özü isə ağır şəkər xəstəsidir. Bu baxımdan özünü dədə-baba üsulu ilə müalicə edir. Bundan başqa evdən ona vərəq gətirirlər, şəkillər çəkir. Bununla başını qatır. Məndə onun çəkdiyi, arxası imzalı bir neçə rəsm var".

Hacı Məmmədovun xatirələr yazmaq istəməsinə gəlincə, E.Behbudov onun bundan tamamilə uzaq olduğunu deyib: "Hacı Məmmədov tam olaraq istəyir ki, camaatın yadından çıxsın. Amma bu mümkün olan deyil. Çünki o, nə qədər ölüm işində məsuliyyət daşıyır".

Sabiq polis polkovniki Hacı Məmmədov 2005-ci ildə tutularaq silsilə qətllərə və adam oğurluqlarına görə ömürlük həbs cəzasına məhkum olunub. Qanunla o, cəzasını Qobustan həbsxanasında çəkməli olsa da, indiyədək istintaqını aparmış MTN-in təcridxanasında saxlanır.

# 50 dildə işləyən tərcümə laboratoriyası yaradılıb

"Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin nəzdində tərcümə laboratoriyası yaradılıb". Bu barədə "525"ə Mərkəzin baş direktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Fuad Babayev məlumat verib. Onun sözlərinə görə, laboratoriya 50 dildə fəaliyyət göstərəcək. Portalın artıq 9 ildir ki, fəaliyyət göstərdiyini qeyd edən F.Babayev bu illər ərzində müxtəlif dilərə tərcümədə unikal təcrübə qazandıqlarını bildirib: "Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin www.aliyevheritage.org portalında ümummilli liderimizin irsi 50 dildə təqdim edilir. Portalımız 9-cu ildir fəaliyyət göstərir və bu müddət ərzində ən müxtəlif dillərə tərcümə sahəsində unikal təcrübə qazanmışıq. Odur ki, Mərkəzin Tərcümə şəbəkəsində çalışan və bu şəbəkə ilə əməkdaşlıq edən çoxsaylı peşəkar tərcüməçilərin potensialından istifadə etməklə tərcümə laboratoriyasını yaratmaq qərarına gəldik".

Qeyd edək ki, sentyabr ayının ortalarından etibarən silsilə tədbirlərin başlanacağı laboratoriyada artıq tərcümə sahəsində araşdırmalar aparan bir sıra mötəbər qurumlarla işbirliyi qurulub.

**AQİL**

# Ştefan Füle: "Regionda uzun müddət mövcud olan münaqişələrin sülh yolu ilə həlli ən əsas problem kimi qalmaqdadır"

## "GƏLƏN İL KEÇİRİLƏCƏK ŞƏRQ TƏRƏFDAŞLIĞI SAMMİTİNƏ QƏDƏR ASSOSİASİYA SAZİŞLƏRİ ÜZRƏ DANIŞIQLARDA BÖYÜK İRƏLİLƏYİŞLƏR GÖZLƏYİRİK"

**Avropa İttifaqının genişlənmə və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Ştefan Füle bu günlərdə Avropa Qonşuluq Siyasəti üzrə Məlumat Mərkəzinə(ENPİ) müsahibəsində bu çərçivədə görülmüş işlərdən və prioritetlərdən danışıb. O, Azərbaycanla bu sahədə görülən işlərə də diqqət çəkib.**



***—İndiki dövrdə Aİ-nin öz qonşuları ilə əlaqələrini necə qiymətləndirirsiniz?***

—Aİ-nin öz qonşuları ilə əlaqələri çox böyük ehtimalla dönüş nöqtəsindədir. Aİ, 2011-ci ilin may ayında yeni Avropa Qonşuluq Siyasətinin qəbul edilməsindən bəri, qarşılıqlı məsuliyyət və ictimaiyyət ilə daha da sıx əlaqələrə əsaslanan bu siyasətin yeni əsaslarının yaradılmasında çox çevik və qərarlı davranıb. İndi biz tam şəkildə deyə bilərik ki, hər bir qonşu ölkə ilə onların səyləri, ehtiyacları və imkanları daxilində əlaqələrin qurulması üçün tam hazırıq. Hal-hazırda yeni alətlərimiz vardır və Lissabon Sazişindən sonra daha aydın və ardıcıl yanaşma tətbiq etməyə başlamışıq.

Artıq bu yanaşma öz müsbət nəticələrini verməkdədir. Bir neçə il davam edən durğunluq dövründən sonra qonşu ölkələrdə demokratiya vüsət almaqdadır. Daha açıq idarəçilik formasına keçid tendensiyası və insan haqları, təməl azadlıqlara hörmət sahələrində irəliləyiş görülməkdədir. Əldə edilmiş struktur dəyişiklikləri yoxsulluğun azaldılmasına və xaricdən sərmayələrin cəlb olunmasına köməklik göstərmişdir, lakin bəzi sosial problemlər hələ də qalmaqdadır. Əlverişli olmayan iqtisadi mühitə baxmayaraq Aİ normalarına və standartlarına davamlı yaxınlaşma ticarət əlaqələrin güclənməsinə yardımçı olmuşdur. Nəqliyyat və enerji sahəsindəki birgə əməkdaşlıq maneələri dəf etməyə və ətraf-mühit problemləri ilə birgə mübarizə aparmağa imkan yaratmışdır. Düşünürəm ki, Aİ və onun qonşuları əlaqələri daha da möhkəmləndirmək üçün bu inkişaf sürətini saxlamalıdırlar.

***—Siz qonşuluq ölkələrində səfərlərdə çox olmuşsunuz, yerlərdə əldə etdiyiniz məlumatlara əsasən, Aİ həmin ölkələrdə necə görülməkdədir? Ədalətli və etibarlı bir tərəfdaş kimi qəbul edilirmi?***

—Düşünürəm ki, Aİ öz öhdəliklərini yerinə yetirən etibarlı bir tərəfdaş kimi görülməkdədir. Mən təkcə tərəfdaş ölkələrin hökumət dairələrinin fikirlərinə deyil, həm də son ildə görüşməyə imkan tapdığım vətəndaş cəmiyyəti nümayəndələrinin rəylərinə əsaslanıram. Bu rəylər faktlarla dəstəklənir. Son on iki ayda Aİ bir çox sahələri əhatə edən böyük işlər həyata keçirmişdir. İcazə verin bir neçə misal gətirim, biz siyasətimizin alətlərini qəbul etmişik. Müqavilə əsaslı əlaqələri yeniləmək sahəsində işləri davam etdirmiş, yeni ticarət sövdələşmələri aparmaq üçün mandat qazanmış, mobillik üzrə dialoqlara start vermiş, maddi yardımları yenidən istiqamətləndirmiş və artırmışıq (demokratiyaya keçid, iqtisadi inkişaf və insanlar arasında əlaqələri dəstəkləmək üçün 600 yüz milyon avro ayrılıb). Bundan əlavə, Avropa İnvestisiya Bankı (AİB) və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) genişlənmiş mandatları vasitəsilə tərəfdaş ölkələrdə əlavə sərmayələrin qoyulması üçün imkanlar açmışıq.

Aydın məsələdir ki, bu inkişaf davamlı olmalıdır. Lakin bir çox tərəfdaş ölkələr Aİ tərəfindən təklif olunmuş yeni Avropa Qonşuluq Siyasətini müsbət qarşılayıb, siyasi və iqtisadi islahatları davam etdirmək sahəsində daha da qətiyyət göstərməyə və Aİ ilə daha da yaxınlaşmağa hazır olduqlarını ifadə ediblər.

***—Şərqdə, əsasən də Şərq Tərəfdaşlığı çərçivəsində əsas prioritetlər hansılardır?***

—Şərq tərəfdaşlarımız ilə münasibətdə əsas prioritet Şərq Tərəfdaşlığı Varşava Sammitində (29-30 sentyabr, 2011) qəbul edilmiş genişmiqyaslı proqramın həyata keçirilməsidir. Biz tərəfdaş ölkələrə rəqabətə davamlı bazar iqtisadiyyatına əsaslanan davamlı demokratiyaya doğru keçid prosesini yekunlaşdırmaq üçün islahatlar aparmağa köməklik etməyə çalışacağıq. Bu mənada, biz tərəfdaş ölkələrə siyasi birliyi sürətləndirməyi və iqtisadi inteqrasiyanı dərinləşdirməyi təklif etmişik.

Şərq Tərəfdaşlığı proqramının yerinə yetirilməsində bizim əsas alətlərimiz dərin və hərtərəfli azad ticarət məkanlarının yaradılması (aidiyyəti üzrə) məqsədi də daxil olan assosiasiya sazişləridir. Biz artıq Ukrayna tərəfi ilə assosiasiya sazişi üzrə danışıqları yekunlaşdırmışıq və Ukraynanın demokratik dəyərlərə əməl olunma və qanunun aliliyinə hörmət sahəsində göstəriciləri onun Aİ ilə siyasi birliyi və iqtisadi inteqrasiyasının sürəti baxımından həlledici əhəmiyyətə malik olacaqdır. Moldova, Gürcüstan, Ermənistan və Azərbaycan tərəfləri ilə assosiasiya sazişləri üzrə danışıqlar aparılmaqdadır və biz 2013-cü ilin avqustunda baş tutacaq növbəti ŞT sammitinə kimi danışıqlarda daha da böyük irəliləyişlər edib onların yekunlaşmasına və konkret işlərə başlanmasına çalışacağıq.

Yekun hədəfi vizasız rejim olan mobillik sahəsində də genişmiqyaslı fəaliyyət planlarımız vardır. Ukrayna və Moldova artıq viza liberallaşdırılması üzrə fəaliyyət planlarını yerinə yetirməkdədirlər. Gürcüstan viza sadələşdirilməsi və readmissiya sazişlərini həyata keçirməyə davam edir və Komissiya bununla əlaqədar öz yol xəritəsini təqdim etmək üzrədir. Digər iki Cənubi Qafqaz ölkəsi də bənzər sazişlər üzrə danışıqları davam etdirirlər. Bundan əlavə, Aİ Belarus tərəfinə öz xalqının mənafeyi naminə belə bir saziş üzrə danışıqlara start verilməsi təklifini irəli sürüb.

Tərəfdaş ölkələrin hökumət qurumlarının imkanlarını gücləndirilməsinə yönələn Hərtərəfli İnstitusional Quruculuq proqramları üzrə yaxından əməkdaşlığı da davam etdirəcəyik. Eyni zamanda, biz vətəndaş cəmiyyətləri ilə əməkdaşlıqları möhkəmləndirməyi və vətəndaş cəmiyyəti təşkilatlarına maliyyə yardımlarını artırmağı, "Hamı üçün Erasmus" təhsil proqramında iştirak vasitəsilə ŞT ölkələrindən olan gənclərə daha çox sərmayə ayrılmasını nəzərdə tutmuşuq.

***—Bu tərəfdaşlıqda, Aİ hansı problemləri Şərqdə və Cənubda olan qonşuları üçün ümumi bir problem kimi görür?***

—Mən 3 əsas bir-birinə bağlı olan problemləri nəzərinizə çatdırmaq istərdim. Birincisi, mövcud münaqişələrin həlli. Qonşuluq regionunda uzun müddət mövcud olan münaqişələrin sülh yolu ilə həlli ən əsas problem kimi qalmaqdadır. Lakin daha dəqiq olsaq, bu məsələnin məsuliyyəti münaqişədə olan tərəflərin üzərindədir və onlar qarşılıqlı güzəşt yolu ilə razılıq əldə etmək üçün öz səylərini daha da artırmalıdırlar. Əks halda, mövcud beynəlxalq vasitəçilik formatında müsbət nailiyyətlər əldə olunacağı sual altındadır. AQS-nin tam potensialı ilə fəaliyyət göstərməsi üçün, müvafiq qonşuluq ölkələri tərəfindən münaqişələrin həlli istiqamətində nailiyyətin əldə olunmasına dair daha da inamlı və davamlı səylərin göstərilməsi tələb olunur. Razılıq əldə olunduğu təqdirdə, Aİ müvafiq nizamlamanın həyata keçirilməsinə dəstək verməyə hazırdır.

Davamlı demokratiyanın qurulması və möhkəmləndirilməsi digər əsas problemlərdən biri kimi qalmaqdadır. Müəyyən irəliləyişlər sezilməkdədir, lakin bəzi ölkələr hələ də bunun üçün uzun bir yol getməlidirlər. İfadə və toplaşma azadlığına qanun və təcrübədə tam şəkildə təminat verilməlidir, insan haqlarına hörmət, xüsusən də siyasət və gündəlik fəaliyyətdə ayrı-seçkiliyin bütün formalarına qarşı müdafiə formalaşdırılmalıdır. Bu, vətəndaş cəmiyyətinin islahatların davamlılığını və hərtərəfliliyini təmin edərək demokratikləşmə prosesində bir vasitəçi kimi mühüm rol oynamağına imkan yaratmış olacaqdır.

Qarşıda duran üçüncü mühüm problem hərtərəfli iqtisadi inkişafın təşviq olunmasıdır. İşsizlik, sosial təcrid olunma və bərabərsizlik, yoxsulluq bütün ölkələrdə olan əhalini narahat edən problemlər sırasındadır. Bunlar qeyri-sabitlik və iğtişaşların kökündə duran əsas problemlərdir və demokratikləşmə prosesini davamlı etmək üçün bu problemlər mütləq öz həllini tapmalıdır. Bu problemləri həll etmək üçün tərəfdaş ölkələr islahatlar aparmalı, iqtisadi, maliyyə, məşğulluq, sosial və təhsil siyasətlərində inteqrə olunmuş yanaşmanı tətbiq etməlidirlər. Aİ, sosial birləşmə və məşğulluğun təşviq edilməsi yolu ilə bu cür islahatların aparılmasını dəstəkləməyə hazırdır.

***—Yaxın gələcəkdə Aİ-nin qonşularına münasibətdə olan siyasəti necə inkişaf edəcəkdir?***

—Aİ olaraq, mən bir neçə sahədə mühüm nailiyyətlərin əldə olunmasını görürəm. Biz tərəfdaş ölkələrdə Aİ investisiyalarının təşviq olunması üçün daha da çox işlər görməliyik. Aİ-na üzv ölkələrini Avropa Viza Məcəlləsi çərçivəsində daha da sistematik şəkildə addımların atılmasına inandırmaq yolu ilə həm Şərq, həm də Cənub Qonşuluq ölkələrində mobillik məsələsini daha da önə çəkməliyik. Cənub Qonşuluğunda Dərin və Hərtərəfli Azad Ticarət Məkanları (DHATM) üzrə danışıqların bağlanılmasına yönəldilmiş prosesin sürətləndirilməsinə çalışmalıyıq. Xidmət sahələrində ticarətin liberallaşdırılması üzrə ikitərəfli danışıqlar sürətləndirilməlidir. Növbəti illərdə konkret nəticələrin əldə olunması məqsədilə sektorlar üzrə əməkdaşlıq gücləndirilməlidir. Tədricən tərəfdaş ölkələrin Aİ proqramları və agentliklərində iştirak etməsi üçün imkanlar açmalıyıq. Bu baxımdan, yenidən nəzərdən keçirilmiş Avropa Qonşuluq Siyasəti nəticə kimi nələri görmək istəyiriksə, daha da iddialı şəkildə onları özündə birləşdirir.

**PƏRVANƏ**

# 9 iyul- diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramıdır

Ötən gün Azərbaycanda diplomatik xidmət orqanları əməkdaşları peşə bayramlarını qeyd ediblər. Prezident İlham Əliyevin 2007-ci il 24 avqust tarixli sərəncamı ilə 9 iyul tarixi Azərbaycanda diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd olunur. Məhz 1919-cu il 9 iyul tarixində Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin katibliyinə dair müvəqqəti təlimatı qəbul edilib.

Yüzillər boyu ərazisində müxtəlif dövlətlərin mövcud olduğu Azərbaycanda xarici diplomatiyanın yaşı da əsrlərlə ölçülür. Lakin sivil, dünya dövlətlərinin də qəbul etdiyi Azərbaycan xarici diplomatiyasının önəmli dövrü Azərbaycan Xalq Cümhuriyyəti illərinə təsadüf edir. 1918-20-ci illərdə müstəqil xarici siyasət yeridən dövlətimizin fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunub.

Demokratik respubilka dövründə xarici diplomatiyamızın başında müxtəlif illərdə Məmmədhəsən Hacınski (28 may 1918 — 6 oktyabr 1918 ), Əlimərdan bəy Topçubaşov (6 oktyabr 1918 — 7 dekabr 1918),Fətəli xan Xoyski (26 dekabr 1918 — 14 mart 1919 ), Məmməd Yusif Cəfərov (14 mart 1919 — 22 dekabr 1919 ), Fətəli xan Xoyski (24 dekabr 1919 — 1 aprel 1920 ) kimi böyük dövlət xadimləri dayanıblar.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin Rusiya tərəfindən işğalından sonra Xarici İşlər Nazirliyi ləğv edilərək əvəzində Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı (XXİK) yaradılıb. Elə bir ciddi səlahiyyətlərə malik olmasa da, XXİK1920-1922-ci illərdə xarici ölkələrlə müəyyən səviyyəli ikitərəfli əlaqələr qurub. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın xalq xarici işlər komissarı vəzifəsini Nəriman Nərimanov və Mirzədavud Hüseynov icra ediblər. SSRİ-nin yaradılmasından sonra XXİK-in tezliklə ləğvi ilə Azərbaycanın xarici siyasəti anlayışı da ləğv olunub. Yalnız 1944-cü ildə SSRİ hökuməti öz maraqlarını nəzərə alaraq Azərbaycan SSR XXİK-i bərpa etdi. İki ildən sonra 1946-cı ildə XXİK Xarici İşlər Nazirliyinə çevrildi. Lakin bu dövrün XİN-ni elə də ciddi səlahiyyətlərə malik olmayıb. Həmin dövrdən başlayaraq Azərbaycanın xarici siyasət idarəsinə Mahmud Əliyev (1944 — 1958), Tahirə Tahirova (1959 — 1983), Elmira Qafarova (1 dekabr 1983 — 22 dekabr 1987), Hüseynağa Sadıqov (23 yanvar 1988 — 29 may 1992) rəhbərlik edib. Hər nə qədər səlahiyyətləri məhdud olsa da, ziddiyətli bir dövrə təsadüf etsə də hər halda həmin illərdə də Azərbaycanın diplomatik orqanı olaraq Xarici İşlər Nazirliyi müəyyən inkişaf dövrü keçib, hazırkı müstəqillik dövründə yüksək inkişaf səviyyəsinə çatan müasir xarici diplomatiyamızın formalaşmasında zəmin rolunu oynayıb. XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini əldə etməyə nail olan Azərbaycan hökuməti bundan sonra sözün əsl mənasında ikitərəfli və çoxtərəfli beynəlxalq əlaqələrə start verib. Dövlət müstəqilliyimiz dünyanın əksər dövləiləri tərəfindən tanınıb və diplomatik münasibətlər qurulub. Azərbaycan beynəlxalq və regional təşkilatların üzvü və ya yaradıcılarından biri olub. Müstəqillik illərində Azərbaycan Respublikasının xarici işlər nazirləri Hüseynağa Sadıqov (23 yanvar 1988 — 29 may 1992), Tofiq Qasımov (4 iyul 1992 — 26 iyun 1993), Həsən Həsənov (2 sentyabr 1993 — 16 fevral 1998), Tofiq Zülfüqarov ( 5 mart 1998 — 26 oktyabr 1999), Vilayət Quliyev (26 oktyabr 1999 — 7 aprel 2004) olub. Hazırda isə ölkəmizin xarici işlər naziri Elmar Məmmədyarovdur. E. Məmmədyarov 2004-cü il, aprelin yeddisindən etibarən Azərbaycanın xarici siyasət idarəsinə rəhbərlik edir.

E. Məmmədyarov 1960-cı ildə, iyulun 2-də Bakıda dünyaya gəlib. 1977-82-ci illərdə Kiyev Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Beynəlxalq Hüquq bölməsinin bitirib. 1982-88-ci illərdə Azərbaycan SSR Xarici İşlər Nazirliyində məsul vəzifələrdə çalışıb. 1991-92-ci illərdə Xarici İşlər Nazirliyində Dövlət Protokolu Şöbəsində müdir, 1992-95-ci illərdə Azərbaycanın BMT yanındakı Daimi Nümayəndəliyində 1-ci katib, 1995-98-ci illərdə XİN-də Beynəlxalq Təşkilatlar İdarəsində rəis, 1998-2003-cü illərdə ölkəmizin ABŞ-dakı səfirliyində müşavir olub. 2003-2004-cü illərdə Azərbaycanın İtaliyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsində fəaliyyət göstərib. E. Məmmədyarov 2004-cü ilin aprelindən etibarən Azərbaycan Respublikasının xarici işlər naziridir.

Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbərliyi və nazirliyi əməkdaşları peşə bayramı münasibətilə ötən gün Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər. Azərbaycan xarici işlər nazirinin müavinləri Xələf Xələfov və Nadir Hüseynovun rəhbərlik etdiyi nümayəndə heyəti öndərin məzarı önünə əklil qoyaraq ona ehtiramlarını bildiriblər.

**Sevinc MÜRVƏTQIZI**

# Regionların tarixi məşğulluq ənənələri bərpa olunur

Son dəfə beş il bundan əvvəl avqust ayında Tovuza gəlmişdim. O vaxt rayonun bütün sahələrində əhali mədəni-quruculuq işlərinə cəlb edilmişdi. Əvvəllər də Tovuzda olmuşdum, o zamanlar rayonun ictimai həyatında süstlük, durğunluq vardı. İnsanların çöhrəsində, baxışlarında kimnənsə narazılıq, kiməsə qınaq oxunurdu. Əlbəttə, bu beş il əvvəl gördüyüm, müşahidə etdiyim hallar idi.

"Bakı-Ağstafa" qatarı ilə Tovuza gedəndə həmin mənzərələr gözlərimin önündən keçir, son beş ildə rayonda hansı yeniliklərlə qarşılaşacağım barədə düşünürdüm.

Səhər saat 9:00-da Qovlar stansiyasında düşüb rayon mərkəzinə getdim.

Tovuza yaxınlaşdıqca şəhərin girəcəyində ucaldılmış əzəmətli "Qala" divarları diqqətimi çəkir, xəyalımı ötən minilliklərə aparır. Beş il əvvəl bu divarların tikilməsi barədə yalnız söz-söhbət gedirdi. İndi yolun sağında və solunda möhtəşəm qala divarları ucaldılıb və şəhərin girəcəyinə xüsusi yaraşıq verir.

Rayonda turizmin inkişafı ilə əlaqədar şəhərin girəcəyində, Tovuz çayının sol sahilində beş hektar ərazidə Olimpiya İdman Kompleksi, onun yaxınlığında 5,2 hektar sahədə 5 ulduzlu otel, karvansara tipli "Qala", "Şəlalə", "Bayraq meydanı" rəmzi "Üç qala" kompleksi tikilmiş, 10,4 hektar sahəsi olan Heydər Əliyev adına mədəniyyət və istirahət parkı salınmışdır.

Şəhərin abadlaşdırılmış küçələrindən keçib ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmış fəvvarələr meydanına baxıram. Hər şey yeni, hər yerdə səliqə-sahman, təmizlik. Bir atalar sözü yadıma düşür:"Çörəyi çörəkçiyə ver..."

Beş il öncə Tovuzda ab-hava, insanların dövlətə, cəmiyyətə, bir-birinə münasibəti tamam başqa idi. İllər ötdükcə, əhali dövlətin, rayon rəhbərliyinin onlara qayğısını hiss etdikcə, maddi durum yaxşılaşdıqca münasibətlər istiləşir, dövlətə, dövlətçiliyə inam artır.

Təbii ki, respublikada sosial-iqtisadi sahələrdə əldə olunan nailiyyətlərdə tovuzluların da zəhməti var.

–Bütün bunlarla yanaşı ən əlamətdar gün ötən il fevral ayının 9-da respublika Prezidenti cənab İlham Əliyev rayonda tarixi səfərdə olarkən rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı bildirmişdir ki: "Bu gün Tovuzda çox yaxşı açılış tədbirlərində iştirak etmişəm. Olimpiya kompleksinin istifadəyə verilməsini qeyd etdik, süd zavodu açıldı, böyük istirahət parkının açılışı çox xoş təəssürat doğurdu. İndi isə bu, Tovuz rayonu üçün çox vacib infrastruktur layihəsi olan yolun açılışında bərabər iştirak edirik". Görüş zamanı qarşıda duran vəzifələrdən danışan və tövsiyələrini verən dövlət başçısı diqqəti ilk növbədə kənd təsərrüfatı məsələlərinə yönəldərək qeyd etmişdir ki: "Tovuz rayonunda kənd təsərrüfatının inkişafı üçün çox böyük imkanlar vardır. Mən hesab edirəm ki, əlbəttə görülən işlər təqdirəlayiqdir, amma gələcəkdə daha çox işlər görülməlidir. Maldarlıq, üzümçülük, taxılçılıq sahələrində böyük işlər görülə bilər".

Respublika Prezidentinin səfər zamanı rayonda aparılan genişmiqyaslı işlərə verdiyi qiymət, eləcə də qarşıya qoyduğu vəzifələr tovuzluların məsuliyyətini daha da artırmış, ötən dövrdəki gərgin fəaliyyət üçün yeni bir impuls olmuşdur.

Bu baxımdan ötən il rayonda aqrar sahədə və onun əsas bölmələrindən olan heyvandarlığın inkişafı sahəsində xeyli iş görülmüşdür. Belə ki, mal-qaranın, qoyun-keçilərin, quşların baş sayı, sürülərdə və naxırlarda ana heyvanların xüsusi çəkisi 2010-cu illə müqayisədə diri çəkidə, 165 ton çox ət, 875 ton süd, 175 min ədəd çox yumurta, 7 ton çox yun istehsal edilmişdir.

Bu gün rayonda taxılçılığın inkişaf etdirilməsi mühüm əhəmiyyətli məsələ kimi həmişə diqqət mərkəzində saxlanılır. Qeyd edim ki, keçən il buğda əkini sahələri 1083 hektar, ümumi məhsul istehsalı 31,8 faiz artırılmış, hər hektardan 28,3 sentner məhsul götürülmüşdür. 2012-ci il üçün taxıl əkini sahələri 1971 hektar genişləndirilərək 9500 hektara çatdırılmışdır.

Gələcəkdə bu səviyyəni saxlamaqla taxılçılığın intensiv inkişafına nail olmaq məqsədilə işlər davam etdirilir.

Məlum olduğu kimi, vaxtilə Tovuz rayonu respublikanın ən böyük üzümçülük rayonlarından biri olmuşdur. Bu gün də rayonun iqtisadiyyatını inkişaf etdirməyin ən səmərəli yolu məhz bu sahə ilə bağlıdır. Hazırda rayonda olan 528 hektar üzüm bağının 108 hektarı 2011-ci ildə salınmışdır. Respublika Prezidenti cənab İlham Əliyevin "2012-2020-ci illərdə Azərbaycanda üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamı üzümçülüyün ölkə iqtisadiyyatının yüksəldilməsində neft və qazdan sonra önəmli yer tutmasına gətirib çıxaracaqdır.

Rayonda kənd təsərrüfatının artırılması üçün torpaqların daha səmərəli istifadə olunması, ondan yüksək gəlir əldə edilməsi ilə əlaqədar əhali ilə müntəzəm iş aparılır. Rayonun bütün kəndlərində istixanalar yaradılması məsələsi məqsəd olaraq qarşıya qoyulub. 2010-cu ildə 10 hektar sahədə, 2011-ci ildə isə daha 10 hektar sahədə yeni istixanalar təşkil edilmişdir. Bundan başqa ilk dəfə olaraq istixana şəraitində 11 hektar sahədə faraş kartof yetişdirilmişdir.

2009-2013-cü illəri əhatə edən "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasından cəmi 2 il keçməsinə baxmayaraq ölkənin hər bir bölgəsində olduğu kimi Tovuz rayonunda da inkişaf və yenidənqurma dinamikası genişmiqyaslı tədbirlərin davam etdirilməsi və artırılması ilə xarakterizə olunur. Belə ki, ötən il ərzində rayonda abadlıq, quruculuq və yenidənqurma işləri daha da sürətləndirilib, infrastruktur təminatının yaxşılaşdırılması üçün mühüm addımlar atılıb.

Proqrama uyğun olaraq 2011-ci ildə süd emalı zavodu, Xatınlı kəndində üzüm və meyvə saxlanılması üçün 50 tonluq, Aşağı Quşçu kəndində 300 tonluq soyuducu kameralar, bunlardan başqa ötən il 80 çarpayılıq Mərkəzi Rayon Xəstəxanası və İsakənd kənd tam orta məktəbi üçün yeni binalar tikilib istifadəyə verilmişdir. Ümumiyyətlə, son 4 ildə rayonda 8 yeni məktəb tikilmiş, ötən ilin sonunda isə 5 məktəb tikintisinə başlanılmışdır. Hazırda həmin tikintilərdə işlər sürətlə davam etdirilir. Belə tikinti obyektləri sırasında təməli dövlət başçımız tərəfindən qoyulmuş tibbi diaqnostika mərkəzini xüsusi qeyd etmək yerinə düşər.

Əhalinin mavi qazla təminatı sahəsində də müəyyən işlər görülmüş, rayonun dağ kəndlərinə qaz verilməsini bərpa etmək məqsədilə çəkilməsi nəzərdə tutulan 53 kilometr daşıyıcı qaz kəmərinin 48 kilometri çəkilib başa çatdırılmışdır. Hazırda 26739 abonent, yəni evlərin cəmi 81 faizi təbii qazdan istifadə edir. Cari ildə dağ kəndlərinə qaz verilməsinin bərpası və yeni qazlaşma aparılması üçün qalan 5 kilometr daşıyıcı qaz xəttinin çəkilməsi nəzərdə tutulur. Bununla da dağ kəndlərində 32 yaşayış məntəqəsində 2023 abonent qazla təmin olunacaqdır. Bütövlükdə rayon üzrə qaz çəkilişi işləri 2013-cü ildə başa çatdırılacaqdır. Rayonun görkəminin dəyişdirilməsi, onun simasının müasirləşdirilməsi, əhalinin ictimai ovqatının formalaşdırılmasına təsir göstərən amil mühüm bir vəzifə kimi qarşıda durur. Bu baxımdan şəhər quruculuğu, genişmiqyaslı memarlıq-abadlıq işləri–şəhərin girəcəyində görülən işlər fasiləsiz olaraq davam etdirilmiş, Heydər Əliyev prospektində, Həzi Aslanov, Musa Musayev, Şəhriyar küçələrində və digər ərazilərdə 130-dan çox obyektin fasadı yenidən qurularaq milli ornamentlərdən istifadə etməklə "aqlay" plitələrlə üzlənmişdir.

Onu da deyim ki, Tovuz şəhəri üzrə həyata keçirilən layihələrin ən önəmlisi əlbəttə ki, şəhərin su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsidir. Ötən il layihənin birinci mərhələsi üzrə 6 milyon manat həcmində iş görülmüş, şəhərin bütün ərazisini əhatə edəcək ikinci mərhələnin tikintisinə başlanılmışdır. Abadlıq və quruculuq işləri Tovuz şəhəri ilə yanaşı Qovlar qəsəbəsində də (qəsəbəyə şəhər statusu verilmişdir) davam etdirilmiş qəsəbədə parklar, küçələr abadlaşdırılmış, Tovuz şəhərində və Qovlar qəsəbəsində küçələrə 41360 kvadratmetr asfalt beton örtük salınmışdır.

Məlum olduğu kimi dövlət başçısı 2011-ci ili "Turizm ili" elan etmişdi: "Bu istiqamətdə ötən il təqdirəlayiq işlər görülmüşdür. Belə ki, Tovuz-Böyük Qışlaq-Qaralar yolunun istifadəyə verilməsi ilə rayonun əsas turist marşrutu da açılmış, təbiətin bəxş etdiyi gözəlliyə malik Əsrik dərəsi boyunca yerləşdirilmiş istirahət guşələri yay mövsümündə 10 minlərlə insanı, xüsusilə ətraf rayonların əhalisini özünə cəlb etmişdir. Rayonda turizm ili həm də 5 ulduzlu "Ayan Palace" otelin tikintisinin başa çatması ilə səciyyəvi olmuşdur. Tikintisinə 2008-ci ilin may ayında başlanılmış otel Tovuz şəhəri ərazisində 5,2 hektar sahədə yerləşir.

Respublika Prezidentinin 20.07.2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2011-ci ilin "Turizm ili" elan edilməsi ilə əlaqədar avtomobil yolunun Tovuz şəhəri ərazisindən keçən hissəsi həmin yoldan ayrılmaqla "Xınna dərəsi" boyunca Tovuz-Qovlar-Ağbaşlar, Əsrik dərəsi boyunca Tovuz-Böyük Qışlaq-Qaralar, "Vahidli" istiqamətində Tovuz-Ağdam, "Təpəbaşı" istiqamətində Tovuz-Əlibəyli magistral yollarının kənarlarında, "Əmirli-Kür qırağı" istiqamətində Kür çayı sahilində yerləşən yaşayış məntəqələri olmaqla turizm marşrutları müəyyənləşdirilib.

Rayonda müəyyən reklam xarakterli tərtibat işləri aparılmış mövcud turizm marşrutları yerləşdiyi yol kənarlarında turizm məkanlarının yerləşdiyi kəndlərin adını göstərən lövhələr asılmış, rayon mərkəzindən məsafə göstərilməklə xüsusi göstəricilər və yol nişanları qoyulmuşdur. Onu da qeyd edək ki, dövlət başçımız "Ayan Palace" otelinin açılışından sonra aprelin 12-də qədim Göytəpə yaşayış məskəni ilə də tanış olmuşdur. Respublika Prezidentinə məlumat verilmişdir ki, neolit və eneolit dövrünə mənsub olan qədim yaşayış məskənlərinin bir qismi Gəncə-Qazax bölgəsində əsasən Kür çayının ort axarı boyunca yerləşir. Bu yaşayış məskənlərinin ərazisi 2 hektar olub əsasən təpə formasındadır. Bölgədə eyni zamanda Cənubi Qafqazda olan yaşayış məskənlərindən ən böyüyü-Göytəpə qədim yaşayış məskəni Tovuz rayonunun ərazisində yerləşir və təpə iki hektardan çox ərazini əhatə edir. Dövlət başçısı yaşayış məskənində aşkar edilən daş və sümük alətlərə, yaşayış məskənində bu günə qədər görülən işlərə və əldə olunan nəticələrə, eləcə də aşkar olunmuş tikililərin bərpası, abidələrin açıq səma altında muzeyə–arxeoparka çevrilməsini əks etdirən stendlərə baxmışdır.

Onu da qeyd edim ki, turistlərin rahat gəliş-gedişi mənalı istirahət etmələri yüksək səviyyədə təmin olunduğu üçün rayona gələn turistlərin sayında ilbəil artım olur. Bu baxımdan ölkəmizin təbiətsevərlərini yay aylarında Tovuzun yeni istifadəyə verilmiş səfalı turizm istirahət guşələrinə dəvət edirəm.

2012-ci ili möhtərəm Prezidentimiz "İdman ili" elan etmişdir. Məlum olduğu kimi ölkəmizdə idman artıq ictimai həyatın mühüm tərkib hissəsinə çevrilmişdir. Bu gün rayonda gənclərin potensialından səmərəli istifadə olunması üçün onların asudə vaxtlarının mənalı təşkili, gənclərə milli-mənəvi dəyərlərin aşılanması, vətənpərvərlik tərbiyəsi istiqamətində mühüm tədbirlər işlənib həyata keçirilir.

**Kamal İBADOV,**
**"Respublika".**

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstiyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**

# "Vasitəçilər ermənilərdən asılılıqlarını nümayiş etdirirlər"

## *MÜBARİZ ƏHMƏDOĞLU:* "RƏSMİ TEHRAN BİLƏSUVAR VƏ PARSABAD KİMİ BİR ÇOX İRAN ŞƏHƏRİNİN ƏHALİSİNİ YOXSULLUQDA QOYARAQ ERMƏNİSTANA YARDIM EDİR"

"ATƏT-in Minsk Qrupu vasitəçilərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə maneələri aydın görünür. Böyük təcrübəyə, mətbuata geniş çıxış imkanlarına və böyük səlahiyyət resurslarına söykənmələrinə baxmayaraq, onlar bunu gizlədə bilmirlər. Dağlıq Qarabağdakı ermənilərlə vaxtilə burada yaşamış azərbaycanlılar arasında dialoqun qurulması istiqamətində atılan bütün addımlar rəsmi vasitəçilər tərəfindən qətiyyətlə rədd edilir". Bu sözləri "525"ə açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.



Politoloq hesab edir ki, vasitəçilərin Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında dialoqu inkar etmələri onların hazırladıqları tənzimləmə variantının fəlsəfəsinə ziddir. O, Yenilənmiş Madrid Prinsiplərinə görə, Dağlıq Qarabağın statusunu Dağlıq Qarabağın əhalisi — orada indi yaşayan ermənilərlə vaxtilə orada yaşamış azərbaycanlılar birgə müəyyən edəcəyini deyib: "İndi vasitəçilər belə bir dialoqun qurulmasına nəinki hazırlıq aparmırlar, hətta başqa strukturların apardıqları hazırlıqların da əleyhinə çıxırlar. Dağlıq Qarabağın azərbaycanlı icması ilə görüşməkdən qorxan vasitəçilər özlərinin ermənilərdən asılılıqlarını nümayiş etdirmiş olurlar. Qarabağda indiki de-fakto idarəedicilərin reytingi 27 faizdir. Hətta Azərbaycana tabeçiliyin son dövrlərində Dağlıq Qarabağda rəhbərlik bu qədər nüfuzsuz və hörmətsiz olmayıb. Bu, o deməkdir ki, Dağlıq Qarabağ erməniləri özləri indiki idarəedənlərinə qarşı müharibə elan ediblər. Qarabağda hərbi-polis rejimi quraraq azərbaycanlı əhalini oradan qovan, erməni əhalini girova çevirən terrorçulara vasitəçilərin ehtiramlı münasibəti şübhə doğurur. Zənnimcə, müharibənin qarşısını alan yeganə mümkün variant Dağlıq Qarabağ ərazisinin dialoq ərazisinə çevrilməsidir. Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları ilə yanaşı, Azərbaycan və Ermənistanın müvafiq təmsilçiləri də münaqişənin dinc yolla tənzimlənməsini müzakirə edib həllini tapa bilərlər".

M.Əhmədoğlunun sözlərinə görə, razılaşma əldə edildikdən sonra Qarabağ ərazisində Azərbaycan və Ermənistan iş adamları birlikdə investisiya və digər iqtisadi layihələr üzrə məsləhətləşmələr apara bilərlər: "Azərbaycanlı və erməni iş adamları ilk olaraq Dağlıq Qarabağda müştərək iqtisadi layihələr reallaşdırmağa başlaya bilərlər. "Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsinin alternativi yoxdur" şablonu indi əks-effekt yaradır. Dağlıq Qarabağ münaqişəsinin "yalnız dinc yolla" tənzimlənməsinin alternativi var. Bu, Qarabağ münaqişəsinin müharibə yolu ilə tənzimlənməsidir. Dinc yolla mümkün deyilsə, hərbi yolla mümkün olacaqdır. İndiki vəziyyət Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməməsini deyil, tənzimlənməsini diktə edir. Dağlıq Qarabağ ərazisinin müharibə meydanına çevrilməsinin qarşısını alan yeganə yol Dağlıq Qarabağın dialoq ərazisinə çevrilməsidir. Hesab edirəm ki, Avropa İttifaqı bu dialoqun reallaşmasında Minsk Qrupuna təcili və hərtərəfli kömək etməlidir".

Daha sonra Azərbaycan-İran münasibətlərinə toxunan politoloq rəsmi Tehranın "Avroviziya" Mahnı Müsabiqəsinin qarşısını almaq istiqamətində istifadə etdiyi variantlar tükəndiyindən müharibə xarakterli yarımprovokasion addıma əl atdığını deyib. O, Azərbaycan ilə həmsərhəd ərazilərdə yaşayan İran vətəndaşları olan azərbaycanlıların aktivləşdirildiyini bildirib: "Bununla da sərhədyanı regionda gərginlik yaratdı. Astara, Ərdəbil, Şərqi Azərbaycan (Təbriz), Qərbi Azərbaycan (Urmiya) ostanlıqlarının əhalisini Azərbaycanla sərhədə tökməklə sonu müharibəyə gətirib çıxardan təxribata baş vurdu. Azərbaycanın əvvəlcədən hazırlığı və təmkinli siyasəti sərhədyanı provokasiyanın qarşısını aldı. Görünür, rəsmi Tehran Azərbaycanın İranın qəfil planına belə qarşılayacağını düşünməmiş. Ona görə də sərhədyanı əhalini provokasiyaya çəkməkdən əl götürməmişdir. Əsas hadisələr Ərdəbil ostanlığının Biləsuvar və Parsabad şəhərlərində baş verir. "Avroviziya"dan bir neçə gün sonra bu iki şəhərin əhalisini Azərbaycan Respublikasına qarşı mitinqə çıxardılar, lakin televiziyada "Avroviziya" Mahnı Müsabiqəsini seyr etmiş İran vətəndaşı olan azərbaycanlılar hökumətin tələsinə düşmədilər və sonrakı mitinq cəhdləri baş tutmadı. Əksinə, indi Ərdəbilin imamcüməsi "Avroviziya" müsabiqəsini izah etmək üçün musiqi nəzəriyyəçisinə çevrilib. Ərdəbil ostanlığının əhalisi anlaya bilmir ki, bu mahnı müsabiqəsinə qarşı rəsmi Tehran niyə belə bir mövqedə dayanıb. Hazırda isə Ərdəbil ostanlığının Parsabad və Biləsuvar şəhərinin əhalisini kütləvi nümayişlərə cəlb etmək üçün yeni bəhanə tapıblar: guya Azərbaycan Respublikası Araz çayının suyundan çox istifadə edir və buna görə də Parsabad və Biləsuvar əhalisi Araz çayının suyundan istifadə edə bilmirlər. Araz çayının İranın Parsabad şəhərinə çatanadək keçdiyi ərazilərdə Azərbaycanın bütün rayonları işğal altındadır; bircə İmişli işğaldan kənardır. Füzuli rayonunun yarısı işğaldan azad edilsə də, digər yarısı hələ də işğal altındadır. Deməli, Azərbaycan vətəndaşları Araz çayının suyunun azalmasında əsas subyekt ola bilməzlər. Əgər doğrudan da Ərdəbil ostanlığına Araz çayının suyu az çatırsa, bunun günahkarı rəsmi Tehran hesab edilməlidir. Rəsmi Tehran Biləsuvar və Parsabad kimi bir çox İran şəhərinin əhalisini yoxsulluqda qoyaraq Ermənistana yardım edir. Ermənistana səfər edən sonuncu İran naziri M.Namcu Ermənistan prezidentinə İrana səfər etməklə bağlı dəvətnamə aparmaqla yanaşı, həm də 25 milyon avroluq pul çeki bağışladı. Pul çekini verməkdə məqsədi Xudafərin körpüsü ətrafında, Araz çayı üzərində Su Elektrik Stansiyasının tikintisinə başlamaq xərcini ödəmək idi. Araz çayı üzərində tikinti işlərinə başlamağın xeyir-duasını verən M.Namcu SES-in tikintisinin rəsmi başlanğıc vaxtını müəyyənləşdirdi. Avqustun 22-də iranlı və erməni nazirlərinin iştirakı ilə SES-in su bəndinin bünövrəsinin rəsmi təməlqoyma mərasimi keçiriləcəkdir. Hətta İran və Ermənistan prezidentlərinin iştirakı gözlənilir. İndi ermənilər su bəndinin tikintisinə hazırlaşırlar və suyu ora-bura yönəldirlər. Başqa sözlə, rəsmi Tehran pul verib Araz çayının suyunu ermənilərə hədiyyə edir, öz vətəndaşları su azlığından əziyyət çəkib hiddətlənirlər, dindarlar isə yerli əhalinin bunun hiddəti Azərbaycan Respublikasına qarşı yönəldirlər. Araz çayı üzərində Ermənistan üçün SES tikən İranın prezidenti və onun komandası həmin şəxslərdir ki, Araz çayının suyunu Urmiya gölünə yönəltməklə bu gölün qurumasının qarşısını alacaqlarını söyləyirdilər. Belə alınır ki, İranın Azərbaycan əhalisini su ilə imtahana çəkmək dini və rəsmi Tehranın öz planları imiş. Görünür, Kərbəla müsibəti yadlarına düşüb. Rola girib artistlik etməyin vaxtının bitdiyini düşünərək, həqiqi simaları müsəlmanı su ilə imtahan çəkmək imiş. Kərbəlada Yezid suyu müəyyən müddətə müsəlmanlara vermədi, amma su mənbəyini dağıtmadı, nə də başqalarına satmadı. İranın indiki rəhbərliyi kökü Türkiyə kimi müsəlman məmləkətindən başlayan, İran və Azərbaycan sərhədini müəyyənləşdirən Araz kimi bir çayın suyunu Ermənistana bağışlayırlar. Əhali özü nəticə çıxarsın: su ilə kim necə rəftar edir.

Urmiya gölünün qurudulmasının da təsadüfi olmadığı aşkarlanır".

M.Əhmədoğlu bu baş verənlərin təkcə su məsələsi deyil, eləcə də təkcə İranı Azərbaycana qarşı düşmənçiliyi deyil: "Baş verənlər həm də İranın indiki rəhbərliyinə Allahın rəhm etməməsinin göstəricisidir. Dünyanın ən varlı və zəngin dövlətlərindən olan İranın kasıb yaşaması Allahın İranın indiki rəhbərliyinə münasibətinin işarəsidir. Söz yox, İranda özünü Allah qədər güclü bilənlər var; onların fikrincə, Allahı məzuniyyətə göndərməyə müyəssər olublar. Ancaq fikrimizcə, Allah var, məzuniyyətə getmir, həmişə, hər yerdə, daimi fəaliyyətdədir.

İran əhalisi bu gün də olmasa, yaxın zamanlarda rəsmi Tehranın azərbaycanlı əhaliyə qarşı təxribatının mahiyyətini başa düşəcəkdir. Beləliklə, əhali Azərbaycan Respublikasının hökumətinə qarşı deyil, İran İslam Respublikasının rəhbərliyinə qarşı çevriləcəkdir".

**Aqil LƏTİFOV**

# *Əli Əhmədov:* "Gənclərə həmişə böyük diqqət və qayğı göstərilir"



"Yeni Azərbaycan Partiyası (YAP) ənənəvi olaraq hər il bu təşkilatın gəncləri üçün yay və qış məktəbləri keçirir. Hazırda da Azərbaycanın iki böyük istirahət mərkəzində, Lerikdə və Oğuzda partiyamızın çoxlu sayda gəncləri həm istirahət edir, həm də digər aktual problemlərlə bağlı fikir mübadiləsi aparırlar". Bu fikirləri YAP sədrinin müavini, icra katibi Əli Əhmədov deyib. Ə. Əhmədovun bildirdiyinə görə, bu layihələrin həyata keçirilməsinə böyük önəm verilir və tədbirlərin əhəmiyyətini artıran amillər mövcuddur: "Birincisi ondan ibarətdir ki, YAP-ın gənc fəalları istirahət edirlər, partiyamızın digər gəncləri ilə tanış olurlar, münasibət qururlar. Digər bir tərəfdən isə Azərbaycanın aktual problemləri ilə bağlı fikir mübadiləsi aparırlar, treninqlər keçirirlər. Hesab edirəm ki, bu, bütövlükdə Azərbaycan reallıqları ilə həm gənclərimizi tanış etmək baxımından, həm də gənclərimizin ölkəmizdəki quruculuq işlərinin gücləndirilməsi və o prosesdə yaxından iştirak etməsi baxımından əhəmiyyətlidir. YAP-ın sıralarında yüksək fəaliyyəti və vətənpərvərliyi ilə seçilən çoxlu sayda gənclərimiz var. Mən onu da xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev gənclərə həmişə böyük diqqət və qayğı göstərir".

YAP-ın ölkəmizdə ən nüfuzlu siyasi təşkilat olduğunu deyən Ə. Əhmədov qeyd edib ki, partiya gənclərin həm Azərbaycanın ən gözəl istirahət guşələrində istirahət etmələrinə şərait yaradır, həm də onların siyasi fəallığının artırılması üçün tədbirlər həyata keçirir. İcra katibi sonra bildirib ki, bütün bunlar gənclərin gələcəyin fəal üzvləri kimi yetişməsində müsbət təsir göstərir: "Mən bunu xüsusi ilə qeyd etmək istəyirəm ki, YAP-ın "Yay məktəbləri" layihəsi kifayət qədər populyarlaşıb. Çoxlu sayda gənclər bu məktəbdə iştirak edirlər və onlar Azərbaycanın ictimai-siyasi həyatındakı iştiraka daha da yaxınlaşmış olurlar".

**Kamil HƏMZƏOĞLU**

# *Elman Abdullayev:* "Azərbaycan diplomatiyasının bütün səyləri Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlib"

"Azərbaycanın xarici siyasətinin, diplomatiyasının uğurları onun bir neçə prinsip və meyarlara əsaslanmasından irəli gəlir". Bu barədə Diplomatiya Günü ilə bağlı danışan XİN-in mətbuat katibi Elman Abdullayev deyib. O bildirib ki, Azərbaycanın xarici siyasətinin uğurları ölkə Prezidentinin düşünülmüş, praqmatik, beynəlxalq münasibətlər sisteminə uyğun siyasətindən irəli gəlir: "Diplomatiyamız beynəlxalq münasibətlər sistemində praqmatik, uzaqgörən, çoxşaxəli, balanslı prinsiplərə uyğun olaraq aparılır. Bunun bariz nümunəsi, ölkə başçısının bu sahədəki fəaliyyətini əks etdirən faktlar göz önündədir". E.Abdullayev deyib ki, Azərbaycanın bu gün nə qədər uğurlu inkişaf modeli olmasını, dünyaya, Avropaya inteqrasiyada nə dərəcədə maraqlı olmasını dünyanın etiraf etməsi bizim uğurumuzdur. "Bu gün təbii ki, ölkəmizin müəyyən prioritetləri var. Azərbaycan artıq beynəlxalq ictimaiyyətin ən fəal üzvünə çevrilib. Ölkəmizin beynəlxalq təşkilatların fəal üzvünə çevrilməsi, bu qurumlarla əməkdaşlığı, ikitərəfli münasibətləri inkişaf etdirməsi onu göstərir ki, uğurlarımız nəinki daxildə, regionda, dünya çərçivəsində yüksək dəyərləndirilir. Ölkə rəhbərliyinin düşünülmüş, müdrik siyasəti nəticəsində Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv olub, bir çox digər beynəlxalq təşkilatlarda özünəməxsus yer tutur. Regional beynəlxalq təşkilatların etibarlı tərəfdaşına çevrilib".



XİN rəsmisi deyib ki, bu gün Azərbaycan diplomatiyasının bütün səyləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlib: "Münaqişənin diplomatik yolla həlli imkanları hələ tükənməyib, buna görə də Azərbaycan prosesləri danışıqlar yolu ilə davam etdirir".

E.Abdullayev müstəqil Azərbaycan diplomatiyasının 20 ildir yarandığını deyib: "Bu qısa müddət ərzində gənc diplomatlarımız çoxşaxəli yol keçiblər. Bura həm problemlər, həm uğurlar aiddir. Müstəqilliyimizin ilk illərində məlumdur ki, Azərbaycan bir sıra problemlərlə, işğal faktı ilə üzləşdi. Bu gün isə diplomatiyamız Azərbaycan haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılmasında işini uğurla yerinə yetirir".

E.Abdullayevin sözlərinə görə, uğurlardan danışarkən bir neçə istiqaməti qeyd etmək olar: "Birincisi, ölkəmiz haqqında dolğun məlumatların çatdırılması, ikincisi, dünya ictimaiyyəti ilə əməkdaşlığın genişləndirilməsi, dünyada və regionda səsimizin ucaldılması, müxtəlif ölkələrlə ikitərəfli, praqmatik, səmərəli əməkdaşlığın genişləndirilməsi. Təbii ki,digər faktları da vurğulamaq olar. Amma əsas budur ki, artıq Azərbaycan dünyada etibarlı tərəfdaş, bir çox məsələlərdə söz sahibi kimi qəbul olunur".

Qeyd edək ki, 9 iyul Azərbaycanda Diplomatiya Günüdür. Azərbaycan diplomatiyasının tarixi rəsmən 9 iyul 1919-cu ildən başlayır. Azərbaycan Demokratik Respublikasının(ADR) xarici işlər naziri 1918-ci ildə təyin olunub, amma təsis edilmə barədə rəsmi sənəd yalnız 1919-cu ildə imzalanıb.

Diplomatiya günü müəyyən olunarkən bir neçə təklif nəzərdən keçirilib. Bu təkliflər sırasında Azərbaycan Xalq Cümhuriyyətinin(AXC) xarici dövlətlə imzaladığı ilk müqaviləsi — Osmanlı Türkiyəsi ilə bağlanan müqavilə günü, Paris Sülh Konfransında Antanta dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin de facto tanındığı gün və digərləri olub.

Lakin nəticədə 9 iyul tarixinin üzərində dayanılıb. Qərara alınıb ki, arxivlərdən AXC Xarici İşlər Nazirliyinə aid tapılmış ilk rəsmi sənəd 1919-cu il 9 iyul tarixli XİN-in katibliyinə dair müvəqqəti təlimat olduğundan məhz bu tarix Diplomatiya gününün əsasını təşkil etsin.

Azərbaycan diplomatiyası ilk addımlarını atarkən — 1919-cu ildə Bakıda 16 xarici dövlətin, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşa və Ukraynanın diplomatik nümayəndəlikləri fəaliyyət göstərib.

11 yanvar 1920-ci ildə Paris Sülh Konfransında Azərbaycanın müstəqilliyi de- facto tanınandan sonra hökumət tərəfindən Qərbi Avropa və Amerikada Azərbaycanın diplomatik nümayəndəliklərinin təsis edilməsinə dair qanun layihəsi hazırlanıb.

**PƏRVANƏ**

# *Sergey Narışkin:* "Azərbaycanla Rusiya arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib"

Azərbaycanda rəsmi səfəri başa çatan Rusiya Dövlət Dumasının sədri Sergey Narışkin iyulun 9-da Milli Məclisdə (MM) parlamentin sədri Oqtay Əsədovla görüşüb. Narışkin ilk öncə MM-in inzibati binasına baxıb, deputatlar üçün yaradılmış şəraiti, burada tətbiq olunan müasir texnologiyanı yüksək qiymətləndirib. O, həmçinin MM- dəki Heydər Əliyev Xatirə zalında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, xarici ölkələrə səfərlərini, keçirdiyi görüşləri, imzaladığı tarixi əhəmiyyətli sənədləri əks etdirən fotolara baxıb, Xatirə kitabına ürək sözlərini yazıb. Sonra O. Əsədov ilə S. Narışkin arasında təkbətək görüş olub. Daha sonra görüş geniş tərkibdə davam etdirilib. MM-in sədri Rusiyanın Krasnodar diyarında daşqınlar nəticəsində çoxsaylı insan tələfatına səbəb olmuş faciə ilə əlaqədar S. Narışkinə və bütün Rusiya xalqına öz adından və Azərbaycan parlamentinin üzvləri adından başsağlığını çatdırıb. Rusiya Federasiyası Dövlət Dumasının sədri vəzifəsinə seçilməsi münasibətilə S. Narışkini təbrik edən O. Əsədov onun ilk xarici səfərlərindən birini Azərbaycana etməsindən məmnunluğunu bildirib və bunu ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlığın daha da genişlənməsinə xidmət etdiyini vurğulayıb. Bildirib ki, ölkələrimiz arasında 160-dan çox sənəd imzalanıb, bu sənədlər əlaqələrimizin hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza yaradıb: "Bunun təzahürüdür ki, Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsi ötən il 2,8 milyard ABŞ dollarından çox olub. Bu gün Azərbaycanda 500-dən artıq Rusiya şirkəti fəaliyyət göstərir. Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycanda Rusiya Kitab Evi yaradılıb. Respublikamızda rus dilinin inkişafı üçün qayğı göstərilir, 500-ə yaxın rusdilli məktəb fəaliyyət göstərir".

Azərbaycanın inkişafı, həyata keçirdiyi regional layihələr barədə qonaqlara ətraflı məlumat verən O.Əsədov deyib ki, bu inkişafa ciddi maneə olan səbəblər də var ki, onlardan ən başlıcası Dağlıq Qarabağ münaqişəsidir. Rusiyanın bu problemin həllindəki vasitəçilik rolunu xüsusi vurğulayan O.Əsədov ümidvar olduğunu bildirib ki, ATƏT-in Minsk qrupunun həmsədri və regionun aparıcı dövləti kimi Rusiya problemin aradan qaldırılmasında səylərini artıracaq, yaxın zamanlarda münaqişə beynəlxalq hüququn norma və prinsipləri, dövlətlərin ərazi bütövlüyü çərçivəsində ədalətli həllini tapacaq.

S. Narışkin də öz növbəsində dövlətlərimiz arasında əlaqələrin hərtərəfli inkişafında qanunverici orqanların rolunu xüsusi qeyd edib, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirib.

O, qeyd edib ki, deputatlarımız bu gün beynəlxalq tədbirlərdə çox uğurlu əməkdaşlıq edirlər: "Bunun nəticəsidir ki, Azərbaycan ilə Rusiya arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Biz bütün imkanlardan istifadə edərək siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimizi daha da möhkəmləndirməli və inkişaf etdirməliyik".

Görüşdə həmçinin, hökumətlərarası və parlamentlərarası komissiyaların fəaliyyəti xüsusi qeyd olunub, ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın perspektivləri müzakirə edilib, deputatların qarşılıqlı səfərlərinin intensivləşdirilməsinin vacibliyi vurğulanıb, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**KAMİL**

# *Sahibə Qafarova:* "Azərbaycan- Avropa İttifaqı arasında münasibətlər ikitərəfli əlaqələrin inkişafından xəbər verir"

"Avropa İttifaqı Şurasının sədri Herman Van Pampuyun ötən həftə regiona, o cümlədən, Azərbaycan məlum səfəri, bu səfər zamanı ölkə rəsmiləri ilə bir sıra önəmli görüşlər keçirməsi, qarşılıqlı maraq doğuran məsələlərlə bağlı müzakirələr aparması bu mötəbər beynəlxalq təşkilatla ölkəmiz arasında əlaqələrin inkişafından xəbər verir. Bu səfər onu göstərir və sübut edir ki, bəzi maraqlı qüvvələrin, dairələrin iddialarının əksinə olaraq , Avropa İttifaqı-Azərbaycan ikitərəfli əlaqələri, münasibətləri gündən-günə dinamik şəkildə, yüksələn xətt üzrə inkişaf edir və etməkdədir". Bunu mətbuata açıqlamasında hakim partiyadan olan millət vəkili, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin üzvü, Bakı Slavyan Universitetinin prorektoru Sahibə Qafarova dilə gətirib. Millət vəkilinin dediyinə görə, bu səfər, eyni zamanda, Avropa İttifaqı tərəfindən H.V.Pompuyun da qeyd etdiyi kimi, etibarlı tərəfdaş imici qazanmış Azərbaycana verilən önəmin növbəti göstəricisidir.



S.Qafarova bu yerdə onu da xatırladıb ki, Avropa İttifaqı xeyli müddətdir "Şərq tərəfdaşlığı" və "Yaxın qonşuluq" proqramları əsasında Cənubi Qafqaz dövlətləri, eləcə də, Azərbaycanla ikitərəfli əməkdaşlıq edir. Bununla yanaşı, ölkəmiz, Azərbaycan nümayəndə heyəti Avropa İttifaqının, Avropa Parlamentinin təsisçiliyi və Azərbaycanın yaxından iştirakı ilə yaradılan "Avronest" Parlament Assambleyasında fəal təmsil olunur. Millət vəkili sonra qeyd edib ki, ölkəmizin xarici siyasəti müstəqil prinsipə əsaslanır və bu prinsip də milli maraqları özündə ehtiva edir: " Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanın xarici siyasətində Avropa İttifaqı ilə münasibətlərə də xüsusi əhəmiyyət verir. Bu baxımdan hesab edirəm ki, Avropa İttifaqı Şurasının sədrinin Azərbaycana məlum səfəri bu nüfuzlu qurumla ölkəmiz arasında ikitərəfli əlaqələrin bundan sonrakı inkişafında da çox ciddi rol oynayacaq".

Millət vəkilinin daha sonra bildirdiyinə görə, Avropa İttifaqı güclü iqtisadi-siyasi mərkəz olaraq Qarabağ məsələsinin danışıqlar yolu ilə tənzimlənməsində də çox əhəmiyyətli yer tuta bilər. "Bildiyiniz kimi, Avropa Parlameti tərəfindən bir xeyli müddət öncə Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın maraqlarını özündə əks etdirən qətnamə qəbul edilib. Burada da Ermənistanın təcavüzkarlıq, işğalçılıq siyasəti birmənalı pislənilir və bu ölkə münaqişənin həllində konstruktiv mövqeyə dəvət olunur. Ona görə məhz bu baxımdan hesab edirəm ki, Avropa İttifaqı və onun ayrılmaz tərkib hissəsi olan Avropa Parlamentinin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar işğalçı Ermənistana təsir etmək imkanları var. Bu imkanlar böyükdür və onlar da öz növbəsində bu imkanlardan istifadə etməlidirlər"- deyə, millət vəkili sonda qeyd edib.

**Kamil HƏMZƏOĞLU**

# Fransanın yeni prezidenti uydurma "erməni soyqırımı" qanununu hazırlayacaq

Fransanın yeni seçilmiş prezidenti Fransua Olland da sələfi Nikola Sarkozi kimi uydurma "erməni soyqırımı"nın inkarına görə cinayət məsuliyyətini nəzərdə tutan qanun hazırlayacağını bəyan edib. APA-nın Frans-Press agentliyinə istinadən verdiyi məlumata görə, bu barədə o, Fransa Erməni Təşkilatları Koordinasiya Şurasının üzvləri ilə görüşündə bildirib. Fransa prezidentinin mətbuat xidməti isə xatırladıb ki, belə bir qanun layihəsinin hazırlanması Ollandın seçkiqabağı vədlərindən biri olub və prezident bu vədini yerinə yetirmək fikrindədir.

Qeyd edək ki, F. Ollanddan əvvəlki prezident N. Sarkozi də 2011-ci ildə belə bir qanun hazırlayaraq Fransa Senatına təqdim etmişdi. Layihə Senatdan keçsə də, 2012-ci ilin fevralında Fransa Konstitusiya Məhkəməsi tərəfindən ləğv edilmişdi. Konstitusiya Məhkəməsi bu qanunu vətəndaşların söz zadlığını pozan sənəd kimi qiymətləndirmişdi.

N. Sarkozinin və Senatın bu addımı Türkiyə ilə Fransa arasında münasibətlərin kəskin pisləşməsinə səbəb olmuş, Türkiyə hərbi, siyasi və iqtisadi sahədə Fransa ilə əlaqələri kəsmişdi.

# *Eldar İbrahimov:* "Azərbaycan Avropa dəyərlərinin qorunmasında fəal iştirak edəcək"

"Dünyada iqtisadi və maliyyə vəziyyətinin pisləşməsi Azərbaycanda aparılan effektiv və xarici təsirlərə davamlı siyasətin nəticəsində ölkə iqtisadiyyatına təsir göstərməyib". Bunu Azərbaycanın ATƏT Parlament Assambleyasındakı (PA) nümayəndə heyətinin üzvü Eldar İbrahimov sözügedən qurumun Monakoda keçirilən yay sessiyasında çıxışı zamanı dilə gətirib. Millət vəkilinin qeyd etdiyinə görə, 2003-cü ildən başlayaraq, ölkədə 1 milyondan artıq iş yeri açılıb, işsizlik 5,4 % təşkil edir. O, bildirib ki, ətraf mühitin qorunması və təbii sərvətlərin effektiv istifadəsi məqsədilə sərmayələrin həcmi ildən-ilə artır: "Ölkədə alternativ enerji mənbələrin istifadəsinə dair müəyyən tədbirlər görülür. Bu sahənin inkişafına 90 milyon dollar ayrılıb. Bəzi regionlarda müasir texnologiyalar əsasında alternativ enerji mənbələrindən yararlanan "Yaşıl evlər" yaradılıb. Bu yaxınlarda Sumqayıt şəhərində günəş modulların və LED lampaların istehsalı üzrə zavod açılıb. Bu istiqamətdə işlər davam etdiriləcək və Azərbaycan Avropa dəyərlərinin qorunmasında fəal iştirak edəcək".

**KAMİL**

**“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə**

# “Sumqayıt” qəzeti ötən 60 ildə şəhərimizin salnaməsini yazıb və yenə də yazmaqdadır”

## ***ƏMƏKDAR JURNALİST QÜDRƏT MƏLİKOV:*** “SUMQAYITIN ZİYALILAR ORDUSUNUN YETİŞMƏSİNDƏ, BURANIN HALAL ZƏHMƏTLƏ ŞAN-ŞÖHRƏT TAPAN İNSANLARININ TANIDILMASINDA BİZİM QƏZETİN XÜSUSİ ROLU VAR”

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

“Küləyin cövlan etdiyi, qum “yağışı”ndan göz açmaq belə mümkün olmayan, Xəzər dənizinin ləpədöyənində salınan Sumqayıt şəhərinə 1949-cu ilin noyabrın 21-də şəhər adı verilib. Müxtəlif xalqların nümayəndələrinin, eyni zamanda, Azərbaycanın bütün bölgələrindən gələn gənc oğlan və qızların əl-ələ verib tikdikləri, qurduqları, ucaltdıqları bu şəhərin üç yaşı olanda “Sosialist Sumqayıtı”, indiki “Sumqayıt” qəzetinin ilk nömrəsi çapdan çıxıb”. “Sumqayıt” qəzetinin baş redaktoru, əməkdar jurnalist Qüdrət Məlikov (Muğanlı) bu sözlərlə körpü saldı bizimlə söhbətinə. Onun sözlərinə görə, ilk nömrələri barakda, çətin texniki şəraitdə, şriftləri əl ilə yığılaraq çap olunan “Sumqayıt” qəzeti də Sumqayıt kimi inkişaf edib, geniş oxucu auditoriyası qazanıb:

**“Şəhər tikildikcə, qurulduqca “Sumqayıt” qəzeti də fəaliyyətini genişləndirib.**

Tikilən hər bir zavod və fabrik, ucaldılan hər bir bina, salınan məhəllə və mikrorayon jurnalist qələmindən süzülərək qəzetin səhifələrinə hopub. Bu qəzet və onun cəfakeş kollektivi ötən 60 ildə Sumqayıt şəhərinin salnaməsini yazıb və yenə də yazmaqdadır”.

Q.Məlikov ulu öndər Heydər Əliyevin arzularının şəhəri olan Sumqayıtın 1969-cu ildən sonra, böyük insanın titanik fəaliyyəti nəticəsində gündən-günə böyüdüyünü, inkişaf etdiyini söyləyib. Baş redaktor deyib ki,

**“Sumqayıt”ın jurnalistləri ən qaynar sahələrdə qeydlər aparıb,**

onu müxtəlif janrlı yazılara çevirərək oxucuya təqdim ediblər: “İşdən, zəhmətdən yorulmayan insanlar haqqında oçerklər, zarisovkalar, çirkin əməllərə qurşananlar barədə felyetonlar dərc olunub. Eləcə də şəhərin ictimai-mədəni həyatında baş verən ən yeni məlumatlar oxuculara çatdırılıb. Ümummilli lider Heydər Əliyevin şəhərə hər gəlişi özü ilə bir yenilik gətirib. Hansısa bir müəssisənin təməli qoyulub, yeni istehsal sahəsi açılıb. Bütün bunlar isə jurnalistlərimizin qələmindən kənarda qalmayıb, əksinə, yazılaraq qəzetdə dərc olunub, oxucunun malına çevrilib. Bundan başqa milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, respublikamızın, o cümlədən şəhərimizin iqtisadi qüdrətinin artırılmasında, gənclərin vətənpərvərlik ruhunda tərbiyələnməsində, şagirdlərin elmi biliklərə yiyələnmələrində, əhalinin sağlamlığının qorunmasında, ailə-məişət problemlərinin həllində, şəhərin idman həyatının işıqlandırılmasında qəzetin və onun yaradıcı kollektivinin xidmətləri böyükdür. Onu da xatırladım ki, Sumqayıtın ziyalılar ordusunun yetişməsində, burada fəal ədəbi mühitin yaradılmasında, şəhərin öz halal zəhməti ilə şan-şöhrət tapan insanlarının tanıdılmasında “Sumqayıt” qəzetin xüsusi rolu var”.

Q.Məlikov bildirib ki, qəzet ulu öndər Heydər Əliyevin siyasi xəttinə, onun layiqli davamçısı Prezident İlham Əliyevin apardığı məqsədyönlü işlərə daim sədaqətlidir. O, Azərbaycana rəhbərlik etdiyi 34 ildə 16 dəfə Sumqayıta gələn Heydər Əliyevin hər bir səfərinin qəzetdə geniş əksini tapıb. Baş redaktorun dediyinə görə,

**bu qəzetin və onun cəfakeş jurnalistlərinin başı çox bəlalar çəkib:**








“Vaxtı ilə kimdən və nədən yazmaq, necə yazmaq müşkül iş idi. Qəzetin üzərində ciddi nəzarət var idi. Senzor oxuyub razılıq verdikdən sonra qəzeti çap edə bilərdik. Yaxşı yadımdadır, bir dəfə SİTA-nın göndərdiyi məşhur bir rəssamın çəkdiyi Leninin portretini səhifəyə qoymuşduq. Necə deyərlər, suyu üfürə-üfürə içən senzor dedi ki, qəzetin çapına icazə vermirəm. Soruşanda ki, nə üçün icazə vermir. O dedi ki, qəzetin birinci səhifəsinə qoyduğumuz rəsm Leninə oxşamır. Belə mübahisələr, yersiz iradlar çox olub. Hər bir tənqidi yazıdan sonra başımız çox ağrıyıb. 1980-ci il idi. Şəhərin beş ən iri mağazasında baş verən neqativ hallarla bağlı oxuculardan çoxlu şikayətlər alırdıq. Şikayət məktublarına əsasən mağazalara kütləvi reyd keçirdik. Qəzetin bir səhifəsi həcmində material hazırlayıb dərc etdik.

**Məqalə ciddi söz-söhbətə səbəb oldu.**

Sən demə bu mağazaların müdirləri respublikada mühüm nüfuz sahibi olan bəzi məmurların qohumları imiş. Haqqımızda ciddi-tədbirlər görmək istəyirdilər, lakin təkzibolunmaz faktlar qarşısında aciz qaldılar. Bu vaxt Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev yığıncaqların birində mətbuatın tənqidi çıxışlarına laqeyd yanaşan bir çox məmuru ciddi tənqid etdi. Nəticədə qəzetimizin tənqidi yazısı şəhər partiya komitəsinin bürosunda müzakirə olundu. Tənqid olunan beş mağaza müdirinin hamısı işdən götürüldü.

Çox şadıq ki, 1998-ci ildə ulu öndər Heydər Əliyev mətbuat üzərindən senzuranı götürəndən sonra daha belə yersiz iradlar baş vermir.

**Çətin, şərəfli və tarixi yol keçmiş**

“Sumqayıt” qəzetində nəsillər yeniləşsə də, buradakı işgüzar və yaradıcı ab-hava dəyişməyib.

Əlinə qələm götürən hər kəs özünün mənəvi və vətəndaşlıq borcunu başa düşür, mövzunu peşəkarcasına, obyektiv şəkildə qələmə alıb qəzetdə dərc etdirir. Onu da xatırladım ki, indiki qəzet bolluğunda “Sumqayıt” qəzeti özünün dəst-xəttini qoruyub saxlayıb. Qəzet 60 ildir ki, oxunur və sevilir”.

Q.Məlikov qeyd edib ki, qəzetin vaxtında, yüksək peşəkarlıqla dərc olunması üçün öncə maliyyə dəstəyi olmalıdır: “Məlumdur ki, SSRİ adlandırdığımız keçmiş qurumda qəzetlər dövlət büdcəsindən maliyyələşirdi. Jurnalistlər daha vəsait toplamaqla deyil, janr rəngarəngliyinə, mövzu aktuallığına diqqət yetirirdilər. Bu baxımdan, qəzetin maliyyə vəsaitinin azlığı qəzetin daha yüksək səviyyədə buraxılmasına mane olur. Mənə elə gəlir ki, qəzet buraxmağa meyl edən hər bir qurum təsisçisi olduğu qəzeti maliyyələşdirməlidir.

**Bəxtiyar MƏMMƏDLİ**

**(Ardı var)**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# Yazıçının obrazlı dili

## ƏLİ İLDIRIMOĞLUNUN YARADICILIĞI BARƏDƏ QEYDLƏR



***Cahid İSMAYILOĞLU,***
**filologiya üzrə fəlsəfə doktoru**
**www.cahidismayiloglu.com**

Əli İldırımoğlunun əsərlərini, haqqında yazılanları mətbuatdan oxumuşdum, lakin onun şəxsiyyətinin, simasının canlı şahidi olmamışdım. Xoş bir təsadüf nəticəsində Əli İldırımoğlu ilə yaxından tanış oldum, ünsiyyət qurdum. Əbəs yerə deməyiblər ki, insan ünsiyyətdə olarkən tanınır. Məhz mənəvi-əxlaqi dəyərləri, ali keyfiyyətləri yüksək olan nurlu insanlarla təmasda olanda adam böyük bir aydınlığa qovuşur.

Əli müəllim söhbət əsnasında dedi ki, mən Allah adamıyam, Allahın sevdiyi bəndəsiyəm, Allahımdan çox raziyam, elə ona görə də səni mənim rastıma çıxartdı. Xeyli sevindim. Çünki mən, Əli müəllimin çoxdandır axtarışında olduğu bir işin həll edilməsində iştirak etdim və bugünlərdə onu başa çatdırdım. Bu Əli İldırımoğlunun fəaliyyət və yaradıcılığının internet məkanında işıqlandırılması idi. İlk andan işə həvəslə yanaşdım. Çox adamlarla işləmək imkanım olub, hər dəfə belə nəticə əldə etmək asan olmayıb. Əli müəllim dəqiq insandır. Hətta o qədər dəqiqdir ki, qarşısındakı nə edirsə etsin, onunla ayaqlaşa bilmir. Mən bunun canlı şahidi oldum.

Təsir altına asanlıqla düşən insan deyiləm, amma Əli İldırımoğlunu tanıyandan, onunla ünsiyyət qurandan, əsərlərini oxuyandan sonra görürəm ki, mən Əli İldırımoğlunun təsiri altına düşə-düşə həyatı yenidən dərk etmişəm. Hətta bu fikirləri, “Əli İldırımoğlundan əvvəl mən, Əli İldırımoğlundan sonra mən” kimi başlıq altına almaq fikrinə də düşürəm. Səmimi insanla öz aranda çoxlu bənzərliklər aşkar edirsən, səmimiyyətdən kənarda bu mümkün deyil. Mən Əli İldırımoğlu ilə həyatımın müəyyən anlarında bənzərliklər də tapdım. Hər dəfə daxilimdə özüm özümlə danışanda, özüm özümlə üz-üzə qalanda bu duyğularımı yazıya köçürməyə cəhd etmişəm. İndi Əli İldırımoğlunun qələmindən çıxan sətirləri oxuyanda, həmən o daxilimdə öz-özümlə danışdığım cümlələr, dil və üslub yadıma düşür. Əli müəllimin əsərlərini oxuduqca sanki insan daxilən yenilənir, mənəvi və ədəbi stimul alır.

İlk görüşümüzdən sonra onun əsərləri ilə tanışlığa hekayələrindən başladım. Oxuduqca duyğularımı qələmə almaq istəyi oyandı məndə. Yavaş-yavaş hiss edirdim ki, yazı üslubum Əli İldırımoğlunun üslubuna bənzəməyə başlayır. Artıq yazılarımı uzun-uzadı mürəkkəb cümlələrlə dərin göstərməyə çalışmıram. Qısa, sadə yazıram, hamı asanlıqla başa düşsün.

Dediyim kimi, oxumağa hekayələrdən başladım. Diqqətimi ilk cəlb edən “Bütöv adam” oldu. Bir nəfəsdə oxuyub başa çatdırdım. Şahidi oldum ki, həqiqətən də bu əsərlər, Əli İldırımoğlunun bir əsrə yaxın həyatından parçalardır. Bu əsərləri oxuduqca Əli İldırımoğlunu daha yaxşı tanıyır, onun uzun, keşməkeşli həyatına səyahət edirsən. Bu məni həm həyəcanlandırır, həm də həvəsləndirir.

Əli müəllimdən soruşmuşdum ki, hansı əsərinizi məsləhət görürsünüz oxuyum. “Aqibət”i, demişdi. Mən isə sadəcə bir hekayəni başa vurduqdan sonra özlüyümdə qərarım o oldu ki, bütün əsərlərini sətirbəsətir oxuyum.

“Bütöv adam” hekayəsi quruluş və insan münasibətlərini o qədər aydın və təbii əks etdirir ki, bir anlıq o dövrdə yaşayırsan. Elə indi yaşadığımız zamanla da müqayisə edirsən, oxşarlıqların şahidi olursan.

Oxumağa təsadüfən bu hekayədən başlamağımın məntiqi çalarları var imiş. Gözəl və yerində bir təsadüf oldu. Çünki Əli İldırımoğlu respublika mətbuatında başa vurduğu 40 illik yaradıcılıq yolundan bu hekayədə bəhs edir. Bilin ki, Əli İldırımoğlu yaradıcılığına ön söz oldu bu hekayə mənim üçün.

Əli İldırımoğlu yazır: “O vaxtlar birinci katiblər yerlərdə özlərini kiçik padşahlar kimi aparırdılar və onların kəsdiyi başın sorğu-sualı yox idi. Ona görə də mənim təzədən öz vəzifəmə bərpa olunmağım raykom katiblərinə ağır gəlirdi, bunu özlərinə heç vəchlə sığışdıra bilmirdilər”. Bu sətirlər indiki dövrümüz ilə nə qədər ayaqlaşır, yəqin ki, oxucuya əlavə izahat verməyə gərək yoxdur.

Yazıçının əsərlərində daim ictimai-siyasi mühiti tənqid, haqsızlıqlarla mücadilə notları duyulur. Bunlar heç biri təxəyyül məhsulu deyil. Gerçəkliyin real mübarizəsi, real döyüş meydanıdır. Əli İldırımoğlu döyüş meydanında cəsur sərkərdə tək iti qələmini bu haqsızlıqlara qarşı qoyurdu.

Əli İldırımoğlu qarşılaşdığı haqsızlıqlar haqqında danışanda nəticə olaraq bu ifadəni işlədirdi: “Oturdum bir felyeton yazdım.” Bununla o zəifin, gücsüzün, kimsəsizin, haqqı tapdananın tərəfində dururdu, onların hüquqlarının bərpasına nail olurdu. Bu cür qələbələr



onun hər bir yazısında iz qoyub, inanıram ki, hələ də müasir dövrümüz üçün ibrət dərsi olmaqdadır.

Nəhəng, dərin çaylar sakit axır, səsi çıxmır, amma xırda, dayaz çayların yanında ağız deyəni qulaq eşitmir. “Kitablarımın ən məsuliyyət hiss eləyən oxucusu elə özüməm”. “Bir dəfə bir yazıçının ilk dəfə əsərini müzakirəyə qoymuşdular, bu ərəfədə bu yazıçı çox narahat idi. Dedim niyə narahatsan? Dedi ki, “bilmirəm ki, oxucular bu əsəri necə qarşılayacaqdır?”. Müzakirə başa çatdı, fasilə olanda hər kəsin alqış səsləri bürüdü zalı. Mən isə buna yanaşdım soruşdum ki, “sən bu nigarançılıqdan çıxdınmı? Görürsən camaat necə alqışladı!?”. Dedi: “Əli müəllim, mən əsərimin qiymətini bu camaatın çapanlarında (alqışlarında) yox, camaatın pıçıltılarında axtarıram. Düz sözü belə pıçıltılarda deyirlər”.

Azərbaycan xalqının yaxşı tanıdığı, ürəkdən sevdiyi görkəmli yazıçı-publisist Əli İldırımoğlu “Zorən jurnalist”, “Aqibət”, “Mənim rəncbər atam” “Qarlı gecələr”, “Közərən sətirlər”, “Həmin adam” və s. romanları ərsəyə gətirmişdir.

Məlumdur ki, bədii dil obrazlı dildir. Obrazlı təfəkkür sahibi olan yazıçı bizi əhatə edən varlığı obrazlı şəkildə ifadə edir. Bədii informasiyanın öz təbiəti, özünəməxsusluğu mövcuddur. Əli İldırımoğlu bu informasiyanı verəndə maksimum yığcamlığı və yaxud minimum vasitələrlə fikrin maksimal ifadəsini əsas götürür. O, əsas fikri bədii-emosional, orijinal, təkrarsız formada ifadə edir. Bu məqamda onun bədii təfəkkürü özünəməxsus dil vasitələri ilə dünyanın (təsvir etdiyi yerin, adamların və s.) obrazlı təsvirini verir ki, bu cəhəti nəzərə almadan onun romanlarının və digər əsərlərinin mahiyyətini, bədii dilinin spesifikasını aşkarlamaq qeyri-mümkündür. Bu mənada bir sitat yerinə düşür: “Ə.İldırımoğlu cəmiyyətdə dağlar kimi uca görünən saytal bir kişidir. O, qələmini özünə dayaq edib xalqın haradan gəlib hara getdiyini düşünür” (Nizaməddin Şəmsizadə).

Əli İldırımoğlunun nəsr dili və üslubu mənə bu cəhətdən çox ləzzət verdi. On cildlik əsərlərini nəzərdən keçirdim, onun barəsində yazılmış əsərləri mütaliə etdim. Əli müəllimin nəsrinin dili və üslubundan bəhs edən xüsusi bir yazıya rast gəlmədim. Mənə elə gəlir ki, nəsr estetikasının təməli birbaşa dilin zəngin imkanları əsasında qurulur. Qızın gözəlliyi gözündən bilindiyi kimi, nəsrin gözəlliyi də onun dilindən, üslubundan, ifadə manerasından hiss edilir, duyulur.Təbii haldır ki, bədii yaradıcılığın forma, dil və üslub kimi komponentləri mündəricə ilə sıx münasibətdə dərk edilib mənalandırıldığı üçün nəsr dili də ədəbi prosesin inkişafında aparıcı meyillərdən birinə çevrilmişdir.

Fikrim Əli İldırımoğlunun romanlarının dil və üslubunu araşdırmaqdır. Özü də geniş planda. Öncə, “Seçilmiş əsərlər”inə daxil olan “Zorən jurnalist” romanının dili haqqında. Diqqətimi bu romana ön söz yazmış və yazısını “Həyat dərsliyi” adlandırmış professor Ə.Həşimovun aşağıdakı fikirləri cəlb etdi: “Romanın dili xüsusi qeydə layiqdir. Məlum həqiqətdir ki, dil fikrin qabığından daha çox mayasıdır, mahiyyətidir, çox böyük ideya və xalq hikməti xəzinəsidir. Əli İldırımoğlunun bədii dili, leksik xəzinəsi öz yükünü məhz canlı xalq dilinin qaynaqlarından, ən incə ifadə vasitələrindən tutmuşdur. Xalq ruhundan süzülüb gələn bu dil ədibin dəst-xəttində müasir intellektual məntiqi-linqvistik ştrixlərlə daha da zənginləşərək yeni bədii-leksik fakt kimi meydana çıxmışdır”.

Söhbətlərindən də yəqin etdim ki, Əli müəllim xalqının, el-obasının dili ilə çox bağlıdır. Dil ilə iş onun bilavasitə istehsalatıdır. Yazıçının, ümumiyyətlə, mövcud olan yaradıcı təfəkkürünün müəyyən qismi dil yaradıcılığına, dil quruculuğuna sərf olunur. Sənətkarın bu ikinci yaradıcılığı (yəni dil yaradıcılığı) dilin müxtəlif qatlarında spesifik şəkildə üzə çıxır (T.Hacıyev). Bu bədii düşüncə sahibinin dilə sevgisi intəhasızdır. Əsərləri ilə tanış olandan sonra fikrimdə yanılmadığımı bir daha yəqin etdim.

Cəmiyyət həyatının elə bir sahəsi, elə bir fəaliyyət dairəsi yoxdur ki, onun tədqiqində dil faktlarından bu və ya digər dərəcədə istifadə edilməsin. Dilin bədii təfəkkürlə, xüsusilə söz sənəti ilə əlaqələri daha mürəkkəb və çoxşaxəlidir. Dil və bədii ədəbiyyat inkişafın müxtəlif mərhələlərində bir-birini istiqamətləndirmişlər; onların başlıca xüsusiyyətləri qarşılıqlı əlaqə və təsirlə müəyyənləşmişdir.

Romandakı obrazların xarakter proyeksiyası məhz belə bir dilin işığında çəkilmişdir. Hər obrazın dili onun birbaşa daxili aləmindən, sosial mənşəyindən, işindən, peşəsindən soraq verir. Bir sözlə, Əli İldırımoğlu ecazkar bədii dilin köməyilə kamil bir rəssam kimi unudulmaz obrazlar silsiləsi yaratmağa nail olmuşdur. Onun əsərlərində partiya işçisinin öz üslubi-linqvistik tərzi, jurnalistin öz leksik imkanları, kənd adamlarının isə idiom və məcazlarla dolu danışıq tərzi vardır. Müəllifin dili bu polifoniyada öz biçimində boy atır. “Dağdan aşmış gün kimiyəm”, “Elə bil uşaq üzü əlləyir”, “Yas düşəndə hərə öz dərdinə ağlayır”, “Yuxa qulağı sulama”, “Ərim ər olsun, kol dibi evim” və s. Roman başdan-başa belə obrazlı, məntiqli ifadələrlə doludur.

Belə bir qənaətə gəlmək olur ki, Əli İldırımoğlu təsvir etdiyi bədii hadisələrə həqiqi sənət ölçüləri, prinsipləri ilə yanaşmışdır. Bu yanaşma öncə dil amilindən asılıdır. O, uzunmüddətli təcrübəsində mükəmməl dil və üslub vərdişlərinə yiyələnmişdir. Ona görə də Azərbaycan nəsrində özünü görkəmli söz ustadı kimi təsdiq etmişdir.

“Zorən jurnalist”in elə birinci cümləsi sintaktik paralelizm ilə başlanır. Bu bir üslubi fiqurdur. Bu fiqur, bir-birinin ardınca gələn cümlələrin eyni sintaktik və intonasiya quruluşuna malik olması, yəni sözlərin deyil, bütövlükdə sintaktik modelin təkrarıdır. Bu cür paralel konstruksiyalar vasitəsilə fikir daha təsirli, emosional şəkildə ifadə olunur. Əli İldırımoğlunun nəsrində isə bu, həm də müəyyən ritm və axıcılıq yaradan vasitə kimi çıxış edir.: “Allahverən kişinin fikri hacalanmışdı. Demisini sakit-sakit tüstülədib, aranı dağa daşıyırdı, dağı arana”. Təbii-emosional təkrar (aranı dağa daşıyırdı, dağı arana) həmin cümlədə paralelizm hadisəsini doğurmuşdur. Yazıçının uğuru bu paralelizmi bir qədər struktur cəhətdən dəyişməsidir. Çünki ifadə el arasında “aranı dağa aparırdı, dağı arana” şəklində təcəssüm tapmışdır. Belə sintaktik paralelizm mətnin komponentlərini uğurla əlaqələndirmişdir.

Sonra gələn cümlələrdə (Mən də ki, dağdan aşmış gün kimiyəm, bu gün varam, sabah yox. Yurdu kor qoymaq olmaz. Bir tüstü çıxaranım lazımdı) ekspressiv sintaksisi təmin edən cümlə, fikir biçimləri, bu biçimlərin sferasında toplanan məna tutumu nə qədər cəlbedicidir. “Dağdan aşmış gün kimiyəm”, tabusu, artıq ömrünü başa vurmaq anlamındadır; yurdu kor qoymaq olmaz- yurdu başsız qoymaq olmaz; bir tüstü çıxaranım lazımdı- evi saxlayan övladım lazımdı.

**(Ardı var)**

## IV Qəbələ Musiqi Festivalı Müslüm Maqomayevin 70 illik yubiley tədbiri ilə açılacaq



Qəbələ şəhərində IV Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Bu barədə APA-ya Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli məlumat verib. O bildirib ki, festivalın açılışı iyulun 24-də olacaq və Azərbaycanın dünya şöhrətli musiqiçisi Müslüm Maqomayevin 70 illik yubileyinə həsr ediləcək. Həmin gün açıq səma altında Müslüm Maqomayevin musiqiləri səslənəcək.

Festival çərçivəsində daha iki yubiley tədbirinin keçirilməsi nəzərdə tutulur. Bu yubileylərdən biri maestro Niyaziyə (100), ikincisi isə Fikrət Əmirova (90) həsr olunacaq. Hər bir yubiley tədbirində bəstəkarların musiqiləri səslənəcək.

Dünyanın müxtəlif ölkələrindən musiqiçilərin qatılacağı festival avqustun 6-dək davam edəcək.

Qeyd edək ki, Qəbələ Musiqi Festivalı Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunur. Tədbirin təşəbbüskarı Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli və dirijor Dmitri Yablonskidir.

## Türkiyədə azərbaycanlı rəssam Sakit Məmmədovun adına Rəssamlıq Akademiyası açılacaq

Azərbaycanın tanınmış rəssamı Sakit Məmmədovun adına Türkiyədə Rəssamlıq Akademiyası açılacaq.

Bu barədə APA-ya məlumat verən rəssam, bu təklifin Türkiyədən gəldiyini deyib: "Bu arzularından xəbərim belə yox idi. Mənə təklif gəldi ki, belə bir addım atmaq istəyirik. Bu çox gözəl bir istəkdir və mən sevindim. Mən bu akademiyanın rektoru olmaq niyyətində deyiləm".

Sakit Məmmədov bildirib ki, onun məktəbi opalizm adlanır və rəssam dünyada bu məktəblə tanınır: "Opalizm məktəbi bu zaman kimi dünyanın heç bir yerində olmayıb. İlk dəfə Azərbaycanda yaranıb. Opalizm bir üslubdur və tələbələrimin hamısı bu məktəbin davamçılardır. Ona görə Avropada bu adla çıxış edirəm. 10-a yaxın tələbəm bu texnikadan istifadə edirlər".

Sakit Məmmədovun yeni mövsümdə Türkiyə və Londonda fərdi sərgilərinin təşkili nəzərdə tutulur.

## Gənc yazar Pərvinin hekayəsi Litvada çap olunub

Litvanın "Siaures Atenai" ("Şimal Afinası") ədəbiyyat və incəsənət həftəlik qəzetinin 6 iyul sayında Azərbaycan Yazıçılar Birliyinin üzvü, nasir Pərvinin (Pərvin Ələmdar qızı Nurəliyeva) "Samir üçün" adlı hekayəsi dərc edilib.

APA-nın məlumatına görə, hekayəni Litva dilinə Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü Mahir Həmzəyev və litvaşünas Edita Ratkuviene çeviriblər. Əsər gənc yazar Pərvinin Azərbaycan Yazıçılar Birliyi və "Təhsil" nəşriyyatının birgə layihəsi olan "Müəllifin ilk kitabı" seriyasından 2012-ci ildə çapdan buraxılmış "Qar yağacaq" adlı hekayələr toplusundan götürülüb.

Qəzetdə müəllifin həyat və yaradıcılığı barədə məlumatlar da yer alıb.

Mahir Həmzəyev otuz ildən artıqdır ki, Litvada Azərbaycan ədəbiyyatını təbliğ edir. O, 1988-ci ildə Vilnüsdə yaratdığı Litva Azərbaycanlıları Cəmiyyətinin xətti ilə də milli-mənəvi və mədəni dəyərlərimizin qorunub saxlanılmasını və yayılmasını təşkil edir, xalqımızın zəngin ədəbi-mədəni irsi ilə litvalıların öz ana dillərində tanış edilməsi və Azərbaycanın adının Baltik ölkələrində fəxrlə səsləndirilməsi işinə töhfələr verir.

Mahir Həmzəyev indiyədək Litva dilinə Azərbaycan xalq nağıllarını çevirib, Nizami, Abdulla Şaiq, Bəxtiyar Vahabzadə, Gülhüseyn Hüseynoğlu, Eldar Nəsibli (Sibirel), Məmməd Namaz, Elçin Hüseynbəyli, Rəşad Məcid, Vahid Qazi və digər Azərbaycan yazıçılarının əsərlərindən tərcümələr edib və Litvada çap etdirib.



ŠIAURĖS ATĖNAI

2012 m. liepos 6 d. Nr. 25 (1091) ISSN 1392-7760 Kaina 1,90 Lt

Pasibaigus 19-ajam „Santaros-Šviesos" suvažiavimui — p. 3

Dvi nuomonės apie Vilniaus meno mugę — p. 5

L. Andriekaus, H. Baubino poezija — p. 6, 7

„Šiaurės katinų" transporto skyrelis — p. 12

Samirui

PERVIN

## Astanada V "Astana-Arkau" Türk Musiqisi Festivalı keçirilib

İyulun 5-7-də Astanadakı Sülh və Həmrəylik Sarayında Paytaxt Günü tədbirləri çərçivəsində V "Astana-Arkau" Türk Musiqisi Festivalı olub.

APA-nın məlumatına görə, Astanadakı Sülh və Həmrəylik Sarayında keçirilən festivalın təntənəli açılış mərasimində 20-dən artıq türk xalqının nümayəndələri iştirak ediblər.

"Bozqurdun 10 oğlu" tarixi-dini kompozisiyası ilə açılan tədbir ilk dəfə olaraq qazax və türk dillərində aparılıb. Türk dilində aparıcılığı türk musiqisinin məşhur araşdırıcısı İrfan Gürdal (Türkiyə) edib. Festivalın fəxri qonaqları isə Qazaxıstanın mədəniyyət naziri Darxan Mınbay, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Türk Dövlətləri Başçıları Şurasının baş katibinin müavini Darxan Kıdırali, "Nur Otan" Milli Demokrat partiyasının katibi Erlan Karin olub.

Tədbirdə bir çox türk xalqlarının, o cümlədən itməkdə olan azsaylı xalqların musiqisi təqdim olunub. Bundan başqa, musiqiçilər "Koroğlu" ümumtürk dastanından bir parçanı birlikdə ifa ediblər. Festival Bilgə Kağanın vəsiyyətnaməsinin qədim türk dilində xorla oxunması ilə başa çatıb.

## Yaşar Nuri yenidən Türkiyəyə aparılır

Azərbaycanın Xalq artisti, Akademik Milli Dram Teatrının aktyoru Yaşar Nuri sabah Türkiyənin Amerika Xəstəxanasına aparılacaq.

Aktyorun həyat yoldaşı Rəhimə Nuriyevanın APA-ya verdiyi məlumata görə, iyulun 7-dən Mərkəzi Gömrük Xəstəxanasına aparılan Yaşar Nuri hazırda özünü yaxşı hiss edir: "Artıq biletlərimiz alınıb və sabah (bu gün — red.) gedirik. Əsas məsələ Yaşarın mədəsinin yeməyə öyrəşməsidir. Bu xəstəliyin tam və köklü şəkildə müalicəsi Allahın əlindədir. Biz əlimizdən gələni edirik". R. Nuriyeva deyib ki, Türkiyədən Bakıya nə vaxt qayıdacaqları hələlik məlum deyil: "Elə dərmanlar var ki, həkimlər deyir və burada tapa bilmirik. Eyni zamanda həkim nəzarətində olmaq daha yaxşıdır".

## Bölgələrdə muzey əməkdaşları üçün səyyar kurslar təşkil edilib

Bölgələrdə muzey əməkdaşları üçün təlim kursları keçirilir. Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, bölgələrdə səyyar yay kursları Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi tərəfindən təşkil edilib.

Bu ayın ilk günlərindən Gəncə şəhərində başlayan kurslar ümumi orta və qeyri-ixtisas təhsilli muzey əməkdaşları üçün nəzərdə tutulub. 40 nəfərə yaxın dinləyicinin iştirak etdiyi kurslara 10 gün ərzində müasir təlim metodları ilə "Muzey işinin təşkili və təkmilləşdirilməsi"nə dair 12 nəfərdən ibarət müəllim və professor heyəti tərəfindən nəzəri məlumat veriləcək, təcrübə mübadiləsi aparılacaq. İyulun 12-dək davam edəcək təlimlərə Gəncə və ətraf bölgələrdən — Goranboy, Göygöl, Samux, Naftalan və Daşkəsəndən muzey işçiləri cəlb olunub. İyulun 19-dan 28-dək Şəki və ətraf bölgələrin muzey işçiləri üçün kursların keçirilməsi planlaşdırılır. Payız aylarında isə digər bölgələrdə səyyar kurslar təşkil ediləcək. Bildirilir ki, bu formatlı kurslar bölgələrdə muzey işinin daha yaxşı təşkilinə imkan verəcək. Həmçinin işçilərə vəzifə öhdəliklərini layiqincə yerinə yetirmələri ilə bağlı vacib nəzəri və praktiki biliklər aşılayacaq.

## Respublika "Xatirə kitabı"nın 11-ci cildi çapdan çıxıb

Respublika "Xatirə kitabı"nın yeni — 11-ci cildi nəşr olunub. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Respublika "Xatirə kitabı" redaksiyasının baş redaktoru Nahid Hacıyevin APA-ya verdiyi məlumata görə, "M" hərfi kitabın ən çox yer tutan cildlərdəndir. "Xatirə kitabı"nın 9, 10, 11-ci cildi bu hərflə bağlıdır.11-ci cild 90 çap vərəqinə yaxındır, cildin 40 səhifəsini fotolar tutur. Burada milli qəhrəmanlar, soyadları "M" hərfi ilə başlayan 20 Yanvar hadisələri, Xocalı soyqırımı, İkinci dünya müharibəsi qəhrəmanları, Polşa, Çexoslovakiya hadisələrində həlak olmuş insanların fotoları əks olunub.

N. Hacıyev deyib ki, kitabın hər cildi 100 çap vərəqindən ibarətdir, hər bir cilddə 15-16 min soyad haqqında məlumat verilib. Xatirə kitabının 20 cilddə çıxması gözlənilir. N. Hacıyev qeyd edib ki, bu cildlər başa çatandan sonra "Xatirə kitabı"nın istiqaməti bir qədər dəyişdiriləcək və Qarabağda qəhrəmanlıqla həlak olan insanlarla bağlı xüsusi buraxılışlar hazırlanacaq.

Qeyd edək ki,"Xatirə kitabı"nın hər cildi 2000 nüsxə ilə çıxır və şəhid ailələrinə, yaxınlarına dövlət hesabına pulsuz verilir.

## Hüseyn Cavid irsinə diqqət və qayğı: parlaq ənənə davam edir

*Bəhruz AXUNDOV,*
**Hüseyn Cavidin Naxçıvandakı ev-muzeyinin direktoru, Naxçıvan MR Əməkdar Mədəniyyət işçisi**

Yaşadığımız dünyada bir çox qeyri-adi, ağılagəlməz, heç kimin inana bilmədiyi hadisələr baş verib. 30-cu illərin dəhşətli günləri, dünyada qan-qan deyən faşist Almaniyasının məğlubiyyəti, SSRİ adlı məkanın bir an içində dağılması, erməni vəhşilərinin Azərbaycan və Türkiyə torpaqlarında törətdikləri soyqırımlar və bu kimi onlarla belə hadisəni yada salmaq olar. Bütün bunlarla yanaşı, bir də öz xalqını qorumaq, onun hüquqlarını müdafiə etməli olan dövlətin tam əks mövqedə dayanması, xalqının öndə gələnlərini, əhalisini səbəbi izah edilməyən zülmə məruz qoyması vardır. Zülm qurbanlarla nəticələnər. Bu baxımdan yaxın tariximizin bu faciəli siyasətinin qurbanları da çox olmuşdur. Onlardan biri, "repressiya" deyərkən ağıla ilk gələni və bəlkə birincisi Hüseyn Cavid əfəndidir.

Lakin görkəmli türk şairi Tövfik Fikretin bir misrasında deyildiyi kimi:

**"Zülmün topu var, gülləsi var,**
**qələsi varsa,**
**Haqqın da bükülməz qolu,**
**dönməz üzü vardır".**

Bizim yazımız da elə məhz bu haqq barədədir. Həyatın çox qəribəlikləri var. 1937-ci ilin qurbanı olmuş bir şəxsiyyət, şair-dramaturq Hüseyn Cavidə olan münasibət (1956-cı ildə bəraət almasına baxmayaraq, ona qarşı hücumlar yenə də davam etmiş, adı yenə də qara siyahıda qalmışdır). 1981-ci ilin iyul ayında ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci hakimiyyəti dövründə görkəmli şair-dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyinin keçirilməsi haqqında imzaladığı qərardan sonra birdən-birə dəyişdi, qara qüvvələrin qarşısı alındı. Bununla da bu qərar ulu Cavidin 2-ci əsl bəraət sənədi oldu. Lakin Cavidə olan bu münasibət, bu diqqət və qayğı bununla bitmədi.

Hüseyn Cavidin ruhuna münasibətdə ən dramatik, ən yadda qalan hadisə 1982-ci ilin oktyabrında baş verdi. Kommunist rejiminin tüğyan etdiyi bir vaxtda məhz Heydər Əliyevin təşəbbüsü ilə böyük şairin cəsədinin qalıqları uzaq Sibirdən vətəni Naxçıvana gətirilərək ev-muzeyinin yaxınlığında əbədilik torpağa tapşırıldı. Sovet torpağında ikinci belə bir hadisə olmamışdır. Hələ indiyədək heç bir repressiya qurbanı soyuq Sibirdən qurtularaq vətənə dönməmişdi. Ulu öndər Heydər Əliyev bütün imkanları səfərbər edərək bu işi görə bildi. Cavidi 100 yaşının tamamında doğma yurduna qaytardı.

Cavidin cəsədinin qalıqları 1982-ci ildə uzaq Sibirdən vətəninə gətirildikdən sonra bu sensasiyalı xəbər keçmiş Sovetlər Birliyində Cavid irsinə marağı daha da artırdı. Bu maraq hətta yaxın, uzaq xarici ölkələrdə də diqqət mərkəzində oldu.

Bu məqsədlə özümün dəfələrlə şahidi və iştirakçısı olduğum bəzi xatirələri oxucularla bölüşürəm.

Onu qeyd edim ki, həmin vaxt Poltava Vilayətinin Noviye Sanjarı şəhərinin "Qızıl bayraq" qəzetinin redaksiyasının şöbə müdiri Pyotr Mixayloviç Jabotinski, Litva SSR-in Kaunas şəhərinin ədəbiyyat muzeyinin direktoru Antanas Lauraytis, Qorki (indiki Nijni-Novqorod) şəhərindəki Maksim Qorki adına ədəbiyyat muzeyinin direktoru Tamara Rıjova, Belarusun paytaxtı Minsk şəhərindəki Yakub Kolasın ev muzeyinin direktoru Zinaida Nikolayevna Komarovskaya, Qırğızıstan SSR-in yazıçılar birliyindən, Tiflis Azərbaycan teatrından və hətta Kiyevdən, Krımdan, Dəşkənddən muzeyimizə məktublar daxil oldu və bu məktublarda qeyri adi, ağılagəlməz hadisə haqqında onlara məlumat verilməsi xahiş olunurdu. Məktublarda ilk öncə "Bu cəsarətli addımı yalnız Heydər Əliyev ata bilərdi" deyə soruşurdular. Bu qeyri-adi hadisə barədə məktubların hamısına cavab verilərək onlara Cavidin gətirilməsinə aid foto-şəkillər və rus dilində Cavidlə bağlı nəşr olunmuş kitablar göndərildi.

1988-ci ilin sentyabr ayında Azərbaycan Mədəniyyət Nazirliyinin göstərişi ilə mən Moskva şəhərində mədəniyyət işçilərinin ixtisasartırma institutunda muzey işi üzrə bir aylıq kursda iştirak etdim. Mənimlə birlikdə Azərbaycanın görkəmli şairi Səməd Vurğunun Bakıdakı ev-muzeyinin direktoru, şairin qızı Aybəniz xanım Vəkilova da kursda iştirak edirdi.

İnstitutda dərslər başlayanda Türkmənistanın Aşqabad şəhərindən gəlmiş, mənimlə bir qrupda təhsil alan SSRİ Xalq Artisti, rejissor və aktyor Altı Karlıyevin xatirə muzeyinin direktoru Altın Karyaqdıyevna Ovezova mənim Hüseyn Cavidin ev-muzeyinin direktoru olduğumu bilib qeyd etdi ki, Türkmənistanın görkəmli sənətkarı Altı Karlıyev Bakıda teatr texnikumunda oxuyarkən Hüseyn Cavid ona dərs demişdir. O, hətta Türkmənistanın Aşqabad şəhərində 1982-ci ildə nəşr olunmuş Quvanç Keriminin "Altı Karlıyevin yaradıcılığı" adlı kitabını mənə göstərdi. Kitabın 16-17-ci səhifələrində Cavidlə bağlı bir bölümdə yazılmışdı:

"Teatr texnikumunda oxuduğu vaxt keçirilən dərslər Altının yaddaşında həmişə xoş xatirə kimi qalırdı. Xüsusən Azərbaycanın şairi, həm də dramaturqu Hüseyn Cavidin Şərq ədəbiyyatından oxuduğu leksiyalar çox maraqlı idi. Cavid həm Şərq ədəbiyyatını, həm də Qərb ədəbiyyatını çox gözəl bilirdi. Altının heyran qaldığı əsərlər "İblis" və "Şeyx Sənan" əsərləri idi. Altı Hüseyn Cavidin ərəb və fars dillərində səlis danışmağına valeh olmuşdu".

Kitabın başqa bir səhifəsində bu sözlər vardı: "Bakıda oxuduğu dövrdə Altı hər gün teatra gedirdi. Hazırkı M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının səhnəsində dəfələrlə Cavidin "Dəli Knyaz", "İblis", "Şeyx Sənan" tamaşalarına baxmışdı".

Həmin vaxt kurslarda dərslər keçiriləndə müxtəlif şəhərlərdən gəlmiş muzey direktorları öz işlədikləri muzey haqqında qısa məlumat verdilər. Növbə mənə çatanda Cavidin ev-muzeyi haqqında məlumat verdikdən sonra bir neçə kəlmə 1982-ci ildə Cavidin uzaq Sibirdən vətəni Naxçıvana gətirilməsindən və ulu öndər Heydər Əliyevin bu böyük şücaətindən danışdım. Bu məlumat çox maraqla qarşılandı. Tezliklə institutun rəhbərliyi özü bu işə qarışdı. Kurs rəhbərimiz çox görkəmli muzeyşünas Anna Konstantinovna Lomunova həmin günün səhərisi mənə bildirdi ki, institutun rəhbərliyi, rektoru məni görmək istəyir. Məni rektorla görüşdürdülər. Çox maraqlı adam idi. Əvvəl mənə Hüseyn Cavidin həyatı və yaradıcılığı barədə suallar verdi, sonra onun uzaq Sibirdən vətənə gətirilməsinin onu çox maraqlandırdığını dedi. Mən bu hadisəni danışdıqca o, qeyd edirdi. Mən Moskvaya getməzdən bir neçə gün əvvəl 7 vərəqdən ibarət kurs işi hazırlamışdım (bilirdim ki, tələb edəcəklər). Kurs işi ev-muzeyi haqqında idi. Kurs işinin bir bölməsi Cavidin vətənə gətirilməsinə həsr olunmuşdu. Həmin yazını da rektora təqdim etdim. İki gün sonra kurs rəhbəri Anna Konstantinovna Lomunova mənə bildirdi ki, günün ikinci yarısında institutun rektoru mənimlə görüşmək istəyir. Saat 3 tamamda məni qəbul etdi və bildirdi ki, institutun rəhbərliyi qərara alıb ki, Hüseyn Cavidin vətənə gətirilməsi ilə əlaqədar institutda tədbir keçirilsin. Məndən xahiş etdi ki, köməklik edim. Yəni Naxçıvanla əlaqə yaradıb muzeyimizdən Cavidin gətirilməsinə aid bütün foto-şəkillərin, sənədlərin surətlərinin göndərilməsini xəbər verim.



Mən elə də etdim. Naxçıvanla əlaqə qurdum. Eyni zamanda Bakıya Turan xanım Cavidə zəng edib bu tədbirin keçirilməsi barədə məlumat verib xahiş etdim ki, Məmmədcəfər Cəfərovun rus dilində, 1982-ci ildə nəşr olunmuş "Hüseyn Cavid" monoqrafiyasını mənə göndərsin. Turan xanım Cavid həmin kitabla yanaşı Hüseyn Cavidin rus dilində əsərlərinin 2 cildliyini də göndərdi. Mən göndərilmiş foto-şəkilləri, sənədləri və kitabları institutun rəhbərliyinə təqdim etdim.

İki gün sonra, günün ikinci yarısında institutun geniş foyesində gözəl bir tədbir keçirildi. 6 lövhədən ibarət çox məzmunlu bir sərgi qurulmuşdu ki, bunların hamısı təqdim etdiyim materiallar əsasında idi. Aybəniz xanım Vəkilovanın (Allah ona rəhmət eləsin) çox böyük köməyi oldu. Mənimlə bərabər sərginin qurulmasında və şəkillər haqqında məlumatların rus dilinə tərcümə olunmasında mənə xeyli kömək etdi.

Mənə bildirdilər ki, tədbirdə SSRİ Mədəniyyət Nazirliyindən, A.S. Puşkin adına Ədəbiyyat Muzeyindən, A.S. Puşkinin Arbatdakı ev-muzeyindən, L.N. Tolstoyun Xamovnikdəki ev-muzeyindən, A.P. Çexovun Melixovadakı ev-muzeyindən nümayəndələr iştirak edəcəklər.

Tədbirdə kurs rəhbəri Anna Konstantinovna Lomunova, A.S.Puşkin adına ədəbiyyat muzeyinin nümayəndəsi və mənim xahişimlə Altı Karlıyevin Aşqabad şəhərindəki xatirə muzeyinin direktoru Altın Karyaqdıyevna Ovezova çıxış etdilər. Tədbirin sonunda institutun rektoru çıxışında Heydər Əliyevin dahi şair-dramaturq Hüseyn Cavidə olan sonsuz məhəbbətindən və indiyədək heç bir kəsin edə bilmədiyi bu cəsarətli işdən danışdı. Çıxışının sonunda üzünü mənə tutub göstərdiyimiz köməyə görə öz təşəkkürünü bildirdi və qeyd etdi: "Siz fəxr edin ki, belə bir dahi şəxsiyyətin ev-muzeyinə rəhbərlik edirsiniz".

Tədbirdən sonra institutun rektoru məni və Aybəniz xanımı kabinetinə dəvət etdi, bir daha ulu öndərin bu böyük şücaətindən danışdı və Azərbaycan xalqının çox zəngin mədəniyyətə və ədəbiyyata malik olmasından söhbət açdı. Onun yanında olan SSRİ Mədəniyyət Nazirliyinin nümayəndəsi də bizi xoş sözlərlə təbrik etdi.

Muzeyimiz keçmiş Sovet İttifaqı zamanı, yəni 1991-ci illərə qədər demək olar ki, bütün müttəfiq respublikalarda olan ədəbiyyat profili və ev-muzeylərinin əksəriyyəti ilə əlaqə saxlayırdı. Razılaşmalara görə Belarusun paytaxtı Minsk şəhərindəki Yakub Kolasın ev-muzeyində və Litva SSR-in Kaunas şəhərindəki ədəbiyyat muzeyində təcrübə mübadiləsində olmuş və həmin vaxt orada sərgi nümayiş etdirmək nəzərdə tutulmuşdur. Bizim Minsk və Kaunas şəhərlərində keçirəcəyimiz bu tədbirlər barədə "Yeni fikir" qəzetinin 23 mart 1990-cı il tarixli nömrəsində geniş məlumat verilmişdir.

1990-cı ilin əvvəllərində Belarusun paytaxtı Minsk şəhərində 10 gün müddətində təcrübə mübadiləsində olaraq bu müddət ərzində özümlə apardığım Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən 12 lövhədən ibarət səyyar sərgini orada nümayiş etdirdim. Bu sərginin 2 lövhəsi Hüseyn Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən vətənə gətirilməsinə aid idi. Sərginin nümayişi böyük sensasiya yaratdı. Yakub Kolasın ev-muzeyinin yaxınlığında yerləşən və çox böyük bir ərazini əhatə edən şəhər poliklinikasının rəhbərliyinin xahişi ilə həmin sərgi 2 gün poliklinikanın çox geniş foyesində nümayiş etdirildi. Bu maraqlı işə və tədbirə görə bizim bu işimiz Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən mükafatlandırıldı.

Lakin 1991-ci ildə Sovet İttifaqı suquta uğradığından Litva SSR-in Kaunas şəhərindəki ədəbiyyat muzeyində belə bir tədbirin keçirilməsi baş tutmadı.

Son vaxtlar Hüseyn Cavidə olan böyük maraq istər qardaş Türkiyə Cümhuriyyətində, istərsə də İran İslam Respublikasında geniş yayılmışdır.

Türkiyə Cümhuriyyətindəki "Azərbaycan dramları (həmin kitaba Hüseyn Cavidin "İblis" faciəsi daxil edilmişdir) kitabın tərtibatçısı Zeynalabdin Makas "Hüseyn Cavid-ədəbi fəaliyyəti və "Topal Teymur" pyesi kitabının müəllifi Ərdoğan Uyğur, "Hüseyn Cavid və Türkiyə ədəbiyyatı" kitabının müəllifi Ənvər Uzun, Cavidin "Uçurum" əsəri üzərində tədqiqat işləri aparan yazıçı Yusuf Gedikli, İran İslam Respublikasından Cavidin "Şeyx Sənan" əsərini tərcümə etmiş və həmin əsər üzərində geniş tədqiqat işləri aparan Tehran "Azadi" Universitetinin professoru, doktor Rəhim Əkbəri Cavuşi və Cavid haqqında silsilə şeirlər yazmış Hacı Məsud İbrahimi ilə yaxından əlaqələr saxlayırıq. Onların yaradıcılıqlarını ev-muzeyi vasitəsi ilə təbliğ edirik və qoruyuruq.

2007-ci ildə dahi şairin 125 illik yubileyi ilə əlaqədar Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində keçirilmiş tədbirlərdə də ev-muzeyi tərəfindən hazırlanmış "H.Cavid-125" adlı geniş məzmunlu səyyar sərgi Cavidin təhsil aldığı qədim İstanbul Universitetində, "Yeditepe" Universitetində, "Hoca Ahmet Yasevi" vakfında, Türkiye Yazarlar Birliyinin İstanbul şöbəsində və "Kazım Qarabəkir" Kültür Mərkəzində nümayiş etdirilmiş və böyük tamaşaçı marağına səbəb olmuşdur.

Dahi şairin qızı Turan Cavidin dediyi kimi, Cavid ocağının çırağını yenidən yandıran ulu öndər Heydər Əliyevin bu ailəyə göstərdiyi diqqət və qayğı bu gün yenə davam etdirilir.

Ölkə başçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Hüseyn Cavidin anadan olmasının 125 və 130 illiyi ilə əlaqədar imzaladığı Sərəncamlar sübut edir ki, dahi şairə olan sevgi, maraq, qayğı daim diqqət mərkəzindədir.

Naxçıvan Muxtar Respublika rəhbərliyinin də Cavidə, Cavidlər ailəsinə olan münasibəti unudulmazdır. Hüseyn Cavidin ev-muzeyinin 2000-ci ildə əsaslı surətdə təmir və bərpa olunması, muzey ekspozisiyasının yenidən qurulması, 2003-cü ildə Turan Cavidin Naxçıvanda 80 illiyinin təntənəli surətdə qeyd edilməsi, şair-dramaturqun 125 illik yubileyinin çox böyük təntənə ilə Naxçıvan Muxtar Respublikasında qeyd olunması, 2012-ci il 20 fevral tarixdə Hüseyn Cavidin 130 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar geniş, çox mühüm işlərin görülməsi nəzərdə tutulmuş, bu barədə tədbirlər planının təsdiq edilməsi Cavid irsinə göstərilən diqqət və qayğıdır.

